# BİZİM ARZULARIMIZA, HƏDƏFLƏRİMİZƏ ÇATMAQ ÜÇÜN STRATEJİ BAXIŞIMIZ VAR!

**NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ YENİ MƏRKƏZ, KABİNƏ VƏ LABORATORİYALAR YARADILIB**

səhifə-2-də

**BEYNƏLXALQ İNDEKSLİ ELMİ BAZALARA DAXİL OLAN JURNALLARDA ELMİ ƏSƏRLƏRİNİN NƏŞRİ İLƏ FƏRQLƏNƏN PROFESSOR-MÜƏLLİM HEYƏTİ MÜKAFATLANDIRILIB**

səhifə-3-də

**ŞANLI QƏLƏBƏMİZİN 100-CÜ GÜNÜ QEYD OLUNUB**

səhifə-4-də

**NDU İLƏ TÜRKİYƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ARASINDA ƏLAQƏLƏR DAHA DA GÜCLƏNİR**

səhifə-5-də

**FACİƏDƏN DOĞAN QİSAS**

səhifə-10-da

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ AZƏRBAYCANIN ƏN DƏYƏRLİ, QABAQCIL ALİ MƏKTƏBLƏRİNDƏN BİRİDİR

*HEYDƏR ƏLİYEV*




# YENİ FİKİR

TƏSİSÇİ: NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ

2 mart 2021-ci il, №2 (36)


## NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN XARİCİ DİLLƏR FAKÜLTƏSİNİN YENİ TƏDRİS KORPUSU İSTİFADƏYƏ VERİLİB

Ümummilli liderimiz Heydər Əliyev demişdir: ***"Hər bir azərbaycanlı öz ana dilini bilməlidir, bu dildə səlis danışmalıdır. Və bu dili sevməlidir. Bununla yanaşı, biz çalışmalıyıq ki, məktəblərimizdə, universitetlərimizdə gənclərimiz bir neçə dil öyrənsinlər. Biz artıq dünyaya qovuşmuşuqsa, dünya birliyinə daxil olmuşuqsa, gərək insanlarımız bir neçə dil bilsinlər".*** Ulu öndərin ideyaları ölkəmizdə, eləcə də muxtar respublikada uğurla həyata keçirilir, təhsil müəssisələrində xarici dillərin tədrisi və öyrənilməsi diqqətdə saxlanılır.





Fevralın 15-də Naxçıvan Dövlət Universitetinin Xarici dillər fakültəsinin yeni tədris korpusu istifadəyə verilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov binada yaradılan şəraitlə tanış olmuşdur.

Məlumat verilmişdir ki, zirzəmi ilə birlikdə 4 mərtəbədən ibarət olan tədris korpusunun zirzəmisində 2 linqafon kabinəsi, 6 auditoriya, bufet, qarderob və qazanxana yerləşir. Birinci mərtəbədə 5 auditoriya, tərcümə mərkəzi, tədris-metodiki mərkəz, ingilis dili və metodika, roman-german dilləri kafedraları, alman dili mərkəzi, multimediya otağı, fransız dili mərkəzi vardır. İkinci mərtəbədə 6 auditoriya, 50 yerlik auditorium, kompüter sinfi, xarici ölkə ədəbiyyatı kabinəsi, ingilis dili mərkəzi, ingilis dili və tərcümə kafedrası, dekanlıq, dekan və dekan müavini otaqları, üçüncü mərtəbədə isə 7 auditoriya, sinxron tərcümə, rus, ərəb, fars dilləri mərkəzləri, rus və şərq dilləri kafedrası, həmçinin 80 yerlik iclas zalı istifadəyə verilib. Fakültədə İngilis dili və metodika, Roman-german dilləri, İngilis dili və tərcümə, Rus və şərq dilləri kafedraları, xarici ölkə ədəbiyyatı və 2 linqafon kabinəsi, eləcə də "Tədris-metodiki mərkəz", "Sinxron tərcümə mərkəzi", "Fransız dili", "İngilis dili", "Alman dili", "Rus dili", "Ərəb dili", "Fars dili" mərkəzləri və "Tərcümə mərkəzi" fəaliyyət göstərir.

Xarici dillər fakültəsində İngilis dili müəllimliyi, Fransız dili müəllimliyi, Alman dili müəllimliyi, Rus dili müəllimliyi, Tərcümə (İngilis-Azərbaycan dilləri), Tərcümə (Ərəb-Azərbaycan dilləri), Tərcümə (Fars-Azərbaycan dilləri) olmaqla, 7 ixtisas üzrə 433 tələbə təhsil alır ki, onlardan 6-sı Türkiyə və Banqladeş vətəndaşıdır.

Tədris korpusunda 12 elektron lövhə, 7 proyektor, 112 kompüter quraşdırılmış və sürətli internetə çıxış təmin edilmişdir.

Ali Məclisin Sədri "Universitet" televiziyasının ingilis dilində yayımlanan ilk xəbər buraxılışını izləmişdir.

Alman-german dilləri kafedrasının müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Məhsəti Əsgərova minnətdarlıq edərək demişdir: "Muxtar respublikanın məktəblərində, eləcə də



Naxçıvan Dövlət Universitetində alman dilinin tədrisi üçün lazımi şərait yaradılmışdır. Kafedramızın müəllimləri dəfələrlə xarici ölkələrdə treninqlər, seminarlar, ixtisasartırma kursları keçmişlər. Onlarla tələbəmiz Almaniya və Fransanın universitetlərində magistr təhsili alaraq ölkəmizdə müxtəlif sahələrdə fəaliyyət göstərirlər. Yaradılan müasir şərait, texnologiyanın ən son nailiyyətlərinin tədrisdə tətbiqi, internetin əlçatan olması məsuliyyətimizi daha da artırır".

İngilis dili və metodika kafedrasının baş müəllimi Aidə Cəlilzadə təhsilə və gənclərə göstərilən dövlət qayğısına görə minnətdarlıq edərək demişdir: "Mən Naxçıvan Dövlət Universitetinin məzunuyam və qürur duyuram ki, bir vaxtlar tələbəsi olduğum universitetdə bu gün müəllim kimi fəaliyyət göstərirəm. Naxçıvan Dövlət Universiteti də hərtərəfli dövlət qayğısı sayəsində daim inkişafdadır. Bu gün ali təhsil ocağında bir-birinin ardınca istifadəyə verilən tədris binalarının sırasına Xarici dillər fakültəsi də əlavə olunur. Xarici dillərin tədrisi üçün ayrıca binanın müəllim və tələbələrin istifadəsinə verilməsi təhsilə göstərilən dövlət qayğısının təzahürüdür. Yaradılan şərait tədris bazasının gücləndirilməsi ilə yanaşı, yüksək bal toplayan abituriyentlərin gələcəkdə ixtisas seçimi zamanı Naxçıvan Dövlət Universitetinə üstünlük verməlri ilə nəticələnib. Çalışacağıq ki, bundan sonra da tədris müasir tələblər səviyyəsində qurulsun".

Baxış zamanı bildirilmişdir ki, sinxron tərcümə mərkəzində 6 xarici dil üçün tərcümə xidməti həyata keçiriləcək. 30 istifadəçi üçün nəzərdə tutulan mərkəz imkan verəcək ki, tələbələr dərs zamanı öyrəndikləri nəzəri bilikləri burada praktik şəkildə tətbiq etsinlər.

Sonra Ali Məclisin Sədri universitetin professor-müəllim heyəti ilə görüşmüşdür.

Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev çıxış edərək demişdir ki, bu gün Naxçıvan Dövlət Universiteti ölkəmizin ali məktəbləri sistemində yüksək nüfuzu, hərtərəfli inkişafı, yüksək- ixtisaslı kadrların hazırlanması sahəsindəki fəaliyyəti ilə seçilir. Universitetdə inkişaf etmiş ali təhsil müəssisələri üçün xarakterik olan bütün struktur bölmələr yaradılmış, "Universitet şəhərciyi" salınmışdır. Hazırda universitetin əyani və qiyabi şöbələrində bakalavr üzrə 5648, magistratura üzrə 360, doktorantura üzrə 138 və rezidentura üzrə 52 tələbə təhsil alır. Yaradılmış imkanların nəticəsidir ki, universitetə əcnəbi tələbə qəbulu ilbəil artmaqdadır. Hazırda Türkiyə, İran, Banqladeş, Nigeriya, Pakistan, Özbəkistan, Rusiya, İraq, Cənubi Koreyadan olan 1029 əcnəbi tələbə universitetdə təhsil alır. Ali təhsil ocağında 444 müəllim çalışır. Müəllimlərin 3-ü AMEA-nın müxbir üzvü, 19-u elmlər doktoru, 161-i isə fəlsəfə doktorudur. 2020-ci il universitetin həyatında yenidənqurma, quruculuq və abadlıq ili kimi qaldı. Belə ki, universitetin Xarici dillər fakültəsi yenidən qurulmuş, Magistratura Mərkəzinin, Memarlıq və mühəndislik, Təbiətşünaslıq və kənd təsərrüfatı, Konservatoriya, Beynəlxalq münasibətlər və hüquq, Təbiətşünaslıq və Kənd Təsərrüfatı, Pedaqoji fakültələrinin binalarında, Tələbə evində, Sosial Xidmət Mərkəzində, İdman kompleksində, Universitet xəstəxanasında təmir işləri davam etdirilmiş, maddi texniki təchizat daha da zənginləşdirilmişdir. Universitetdə Beynəlxalq Münasibətlər və Hüquq, Xarici Dillər fakültələri yaradılmış, iqtisadiyyat ixtisası üzrə ingilis dilində tədrisə başlanılmışdır. Ötən il universitet müəllimlərinin 66 elmi əsəri yüksək impakt faktorlu və beynəlxalq nüfuzlu bazalarda nəşr edilmişdir. Bununla yanaşı, universitetin müxtəlif ixtisaslarının bazasında yeni mərkəz, laboratoriya və kabinələr qurulmuş, "Smart" tələbə kartları layihəsinin ilk mərhələsi uğurla reallaşdırılmışdır. Ötən il Naxçıvan Dövlət Universitetinin həyatı üçün ən önəmli yenilik isə Texnologiyalar Parkının yaradılması olmuşdur. Elbrus İsayev yaradılan şəraitə görə kollektiv adından minnətdarlıq etmiş və bundan sonra da üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəklərinə söz vermişdir.

*Ardı 2-ci səhifədə*





Universitetin ingilis dili müəllimliyi ixtisası üzrə 3-cü kurs tələbəsi, Prezident təqaüdçüsü Zübeydə Zeynalova çıxış edərək demişdir: “Gənc nəslə qayğının ifadəsidir ki, muxtar respublikada ən müasir maddi-texniki bazaya və zəngin kitabxanalara malik olan, informasiya texnologiyaları və elektron tədris vəsaitləri ilə təchiz edilmiş ali təhsil müəssisələrində yüksək biliklərə yiyələnirik. Təhsil sahəsində aparılan islahatlar diyarımızda gənclərin daha mükəmməl təhsil almalarına hesablanıb. Bu uğurları görən bir Azərbaycan gənci kimi, mən də ali təhsil alıb gələcəkdə dövlətimə, xalqıma layiqli xidmət etməyi qarşıma məqsəd qoydum. Orta məktəbi uğurla başa vurub qəbul imtahanlarında 687 bal toplayaraq Naxçıvan Dövlət Universitetinə qəbul olundum və Prezident təqaüdünə layiq görüldüm. Prezident təqaüdünə layiq görülməyim isə məsuliyyətimi daha da artırıb. Ali təhsil almaq üçün ingilis dili müəllimliyi ixtisasını seçməyimə səbəb burada mükəmməl təhsil alaraq müəyyən təcrübə topladıqdan sonra muxtar respublikanın inkişafına öz töhfəmi verməkdir. Xarici dillər fakültəsinin maddi-texniki bazası və təhsil infrastrukturu tələblərə uyğun olaraq zənginləşdirilmişdir”. Zübeydə Zeynalova göstərilən diqqət və qayğıya görə universitet tələbələri adından Ali Məclisin Sədrinə minnətdarlığını bildirmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Dövlət Universitetinin Xarici Dillər fakültəsinin yeni korpusunun istifadəyə verilməsi münasibətilə kollektivi təbrik edərək demişdir: Naxçıvan Dövlət Universiteti böyük inkişaf yolu keçmişdir. 1967-ci ildə Azərbaycan Pedaqoji İnstitutunun Naxçıvan filialı kimi fəaliyyətə başlamış, 1972-ci ildə ümummilli liderimiz Heydər Əliyevin qərarı ilə Naxçıvanda Pedaqoji İnstitut yaradılmışdır. 1990-cı ildə institut Naxçıvan Dövlət Universitetinə çevrilmiş, pedaqoji profilli dövlət universiteti kimi fəaliyyətini davam etdirmişdir. Naxçıvan Dövlət Universitetinin əsas inkişafı müstəqillik illərinə təsadüf edir. Həmin illər ərzində universitet səmərəli fəaliyyət göstərmiş, Azərbaycan təhsilində xüsusi yeri olan nailiyyətlər əldə etmiş, pedaqoji profilli universitetdən klassik universitetə çevrilmişdir.

Ali Məclisin Sədri demişdir: “Naxçıvan Dövlət Universiteti Azərbaycanda ilk klassik universitetdir ki, o da zamanın tələbinə görə yaradılmışdır. Azərbaycan Respublikasının Konstitusiyasında Naxçıvanın muxtar dövlət statusu təsdiq olunmuşdur. Ona görə də muxtar respublikanın dövlət orqanlarında, eləcə də digər sahələrdə kadrlara ehtiyac yaranmışdı. Həmin dövrdə kadr təminatını həyata keçirmək üçün Naxçıvan Dövlət Universitetindəki ixtisaslar yetərli deyildi. Yeni ixtisasların yaradılması zərurətə çevrilsə də, müəllim çatışmazlığı vardı. Bu gün isə Naxçıvan Dövlət Universitetinin kadrlarının əksəriyyəti universitetin öz məzunlarıdır.




Əgər o vaxt universitetdə 9-10 ixtisas fəaliyyət göstərirdisə, bu gün 63 ixtisas üzrə bakalavr, 76 ixtisas üzrə isə magistratura təhsili verilir. O dövrdə universitetdə oxuyan bütün tələbələrin sayı 1200-ə çatmırdısa, bu gün təkcə mindən artıq xarici tələbə təhsil alır. Bütün bunlar böyük zəhmət hesabına reallaşıb. Bu nailiyyətlərin qazanılmasında Naxçıvan Dövlət Universitetinin kollektivinin xüsusi payı vardır.”

Ali Məclisin Sədri qazanılan nailiyyətlərdə əməyi olanlara təşəkkür edərək demişdir: “Vaxtilə Naxçıvan Dövlət Universiteti Azərbaycan universitetləri içərisində axırdan 2-ci yerdə idisə, bu gün universitet ölkə universitetləri arasında ilk yerlərdədir. Universitetin məzunları həm dövlət quruculuğunda, həm də ölkəmizin müdafiəsində, təhlükəsizliyində, iqtisadiyyatının inkişafında, bir sözlə, bütün sahələrdə fəaliyyət göstərirlər. Klassik universitetin yaradılmasının əsas səbəblərindən biri də muxtar respublikanın tələbatını ödəməklə yanaşı, eyni zamanda beynəlxalq əməkdaşlığı inkişaf etdirməkdir. Hazırda Naxçıvan Dövlət Universitetinin dünyanın 100-ə yaxın universiteti ilə əlaqəsi vardır. Bütün bunlar yalnız muxtar respublikanın deyil, bütövlükdə ölkəmizin inkişafına töhfə verir.”

“Ali təhsilli gənclər ölkənin gələcək qurucularıdır. Onlar necə yetişdirilərsə, necə təhsil və tərbiyə alarsa, ölkənin gələcəyi də o cür olacaqdır”, - deyən Ali Məclisin Sədri bildirmişdir ki, ötən dövrdə universitetdə geniş quruculuq işləri aparılmış, hər fakültə üçün ayrıca tədris korpusları istifadəyə verilmişdir. Vaxtilə bir binada 3, yaxud 4 fakültə yerləşirdi. Lakin bu gün hər fakültənin öz binası vardır. Yeni laboratoriyalar və araşdırma mərkəzləri yaradılıb. Müasir infrastruktur və keyfiyyətli tədris isə yerli tələbələrlə yanaşı, xarici ölkələrdən olan tələbələrin də universitetə marağını artırmışdır. Bu gün Naxçıvan Dövlət Universiteti Azərbaycan universitetləri içərisində təhsil alan xarici tələbələrin sayına görə irəlidədir.

Ali Məclisin Sədri demişdir: “Universitetdə tədris olunan 63 ixtisasdan 7-si bu gün istifadəyə verilən Xarici dillər fakültəsindədir. Bu ixtisasların yaradılması qarşıda duran məqsəd idi. Lakin müəllim çatışmazlığı var idi. O dövrdə başqa ölkələrdən müəllimlər dəvət olunaraq tədris quruldu. Bu gün artıq Naxçıvan Dövlət Universitetinin Xarici Dillər fakültəsinin müəllimləri yerli mütəxəssislərdir. Ümummilli liderimiz Heydər Əliyev XXI əsr, üçüncü minillik münasibətilə Azərbaycan xalqına müraciətində deyirdi ki, “Yönümüz Şərqə olsa da, yolumuz Qərbə olmalıdır”. Bu o deməkdir ki, biz şərqli olsaq da, qərbə doğru da getməli, Avropa təhsilini mənimsəməliyik. Bunun üçün isə dil bilmək lazımdır. Bu fakültənin yaradılmasında əsas məqsəd gənclərə xarici dillərin öyrədilməsi və onları dünyanın aparıcı universitetlərində təhsil almağa hazırlamaq idi. Bu gün 300-dən çox naxçıvanlı gənc xarici ölkələrdə təhsil alır. Onlar yaxşı mütəxəssis kimi geri dönəcək, biliklərini ölkəmizin inkişafına sərf edəcəklər. Ötən dövrdə Xarici dillər fakültəsinin 1400-dən çox məzunu olmuşdur. Onlar bu gün respublikamızda və xarici ölkələrdə çalışır, ölkəmizin inkişafına töhfələrini verirlər. Fakültədə 12 elektron lövhə, 7 proyektor, internetə qoşulmuş 112 kompüter istifadəyə verilir. Bu da bəzi universitetlərdə tətbiq olunan yeni texnologiyalardan artıqdır.”

Ali Məclisin Sədri demişdir: “Naxçıvan Dövlət Universitetinin qısa zaman ərzində keçdiyi yola nəzər saldıq. Bu, zaman baxımından qısa olsa da, görülmüş işlər böyük bir dövrə sığar. Vaxtilə ölkənin çətin bir dövründə muxtar respublikada ilk işlərə Naxçıvan Dövlət Universitetində başlandı. Yeni korpus tikildi, fakültələr yaradıldı, lazımi avadanlıqlarla təmin olundu. Bu gün isə onun bəhrəsini görürük. Muxtar respublikanın kadr təminatında bu universitetin xüsusi rolu vardır. Universitet bundan sonra da fəaliyyətini uğurla davam etdirməlidir. Kollektivin qarşısında duran əsas vəzifə tədrisi düzgün təşkil etməkdən, gənclərə xarici dilləri yaxşı mənimsətməkdən və onları mütəxəssis kimi hazırlamaqdan ibarətdir. Müdriklər deyirlər ki, bir ölkənin gələcəyini bilmək istəyirsənsə, onun gəncliyinə nəzər sal. Bu gün ölkəmizdə gənclər hansı səviyyədə yetişdirilirsə, gələcək də o cür olacaqdır.”

Həmin gün Ali Məclisin Sədri universitetin rektorluq binasının layihələndirilməsi və “Universitet” televiziyasının muxtar respublika üzrə yayımının təmin olunması barədə tapşırıqlar vermişdir.

# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ YENİ MƏRKƏZ, KABİNƏ VƏ LABORATORİYALAR YARADILIB



Fevralın 15-də Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov Naxçıvan Dövlət Universitetində yeni yaradılmış mərkəz, kabinə və laboratoriyalara baxmışdır.

Bildirilmişdir ki, Ali Məclis Sədrinin tapşırığı ilə Beynəlxalq münasibətlər və hüquq fakültəsində “Diplomatiya Mərkəzi” və “Kriminalistika” laboratoriyası, Pedaqoji fakültədə “Texnologiya mərkəzi” və “Atıcılıq mərkəzi”, Memarlıq və mühəndislik fakültəsində “Robototexnika” laboratoriyası, Tibb fakültəsində “Əczaçılıq Simulyasiya” kabinəsi və Sosial Xidmət Mərkəzində “Yaşıl Əczaxana” yaradılmışdır.

"Əczaxana Simulyasiya" kabinəsi Azərbaycanda bu adda ilk dəfə təşkil olunmuşdur. Burada farmakologiya, əczaçılıq işinin təşkili və digər fənlərin tədrisində əyani vəsaitlərlə birbaşa işləmə və simulyasiyalar vasitəsilə peşə bacarıqlarının formalaşdırılması həyata keçirilir. Əczaxana modelində qurulan kabinədə dərman maddələrinin, dərman preparatlarının və tibbi ləvazimatların saxlanılması, dərmanların hazırlanması və təqdim olunma üsulları tələbələrə əyani şəkildə nümayiş olunur. Həmçinin həkimlər tərəfindən yazılan resept nüsxələrinin qəbulu, dərman preparatlarının verilməsi, onların istifadə qaydalarının izah edilməsi işləri aparılır. Kabinədə tələbələrə dərmanların rəflərə farmakoloji qruplara uyğun düzülüşü qaydaları, saxlanılması şəraiti öyrədilir. "Stomatoloji Simulyasiya" kabinəsi də bu ixtisas üzrə tədrisin yüksək səviyyədə qurulmasına xidmət edir.

Məlumat verilmişdir ki, Azərbaycan ali təhsil ocaqları arasında bir ilk olan diplomatiya mərkəzi müasir təhsil infrastrukturu komponenti kimi xüsusi əhəmiyyətə malikdir. Mərkəzin yaradılmasında əsas məqsəd universitetdə beynəlxalq münasibətlər üzrə yüksəkixtisaslı kadr hazırlığı sahəsində tədris prosesinin informasiya-metodik təminatını təkmilləşdirmək, onun səmərəliliyini və keyfiyyətini yüksəltməkdən ibarətdir. Diplomatiya mərkəzi tələbə, magistrant və doktorantlar, habelə müəllimlər və mütəxəssislər, ümumiyyətlə beynəlxalq münasibətlər, diplomatiya, beynəlxalq siyasət və tədqiqatçılar üçün nəzərdə tutulmuşdur. Ənənəvi tədris və təlim vasitələri ilə yanaşı mərkəz ən müasir informasiya texnologiyaları vasitələrilə də təmin edilmişdir. Mərkəzdə elektron lövhə, polikam kamera, masaüstü mikrofonlar, səs gücləndiricilər və digər elektron avadanlıqlar quraşdırılmışdır.

Ali Məclisin Sədri universitet əməkdaşlarının müxtəlif elmi jurnallarda dərc olunan məqalələrindən ibarət sərgiyə baxmışdır.

Beynəlxalq Münasibətlər və Hüquq Fakültəsinin Məhkəmə Ekspertizası və Kriminalistika Laboratoriyası məhkəmə ekspertizası və kriminalistika fənlərinin tədrisini və beynəlxalq təhsil standartının müddəalarını yüksək səviyyədə həyata keçirmək üçündür. Laboratoriyanın əsas vəzifəsi təcrübi məşğələlərin səmərəliliyini artırmaq, nəzəri bilikləri möhkəmləndirmək və tələbələrin praktik olaraq bacarıq və vərdişlərinin formalaşmasında baza rolunu oynamaqdır. Burada tələbələrə izlərlə işləmək, texniki və məhkəmə alətlərindən düzgün istifadə və davranma vərdişləri aşılanır, habelə onların istintaq hərəkətlərinin həyata keçirilməsində

*Ardı 3-cü səhifədə*





bilik və bacarıqları inkişaf etdirilir. Laboratoriyada tədqiqat obyektini və hər hansı predmeti 50 dəfəyədək böyütmə imkanı olan steromikroskop, əl və barmaq izlərini aşkarlamaq üçün xüsusi vasitələr, müxtəlif ölçülü və müxtəlif təyinatlı böyüdücü zərrəbinlər, kəskin iyli maddələrlə işləmək üçün respiratorlar, 150 millimetr müxtəlif formalı obyektlərin dəqiq ölçülməsi üçün istifadə edilən digital ştangenpərgar, Lyuminensiya karandaşı, ultrabənövşəyi lampa, əlcəklər və ayaq izlərinin götürülməsini təmin edən gips və əyani vəsaitlər, digər əşya və materiallar vardır.






Ali Məclisin Sədri kriminalistika ilə bağlı xarici ədəbiyyat nümunələrinin tərcümə olunaraq istifadə olunması ilə bağlı tapşırıq vermişdir.

Ali Məclisin Sədri Pedoqoji fakültədə yaradılan "Atıcılıq Mərkəzi"nə və "Texnologiya Mərkəzi"nə də baxmışdır. Texnologiya Mərkəzində Kulinariya, Toxuculuq və Tikiş texnologiyaları kabinələri, metal və ağac emalı üzrə emalatxana vardır. Burada tələbələrin əl vərdişlərinin təkmilləşdirilməsi üçün hərtərəfli şərait yaradılmışdır.

"Yaşıl əczaxana" universitetin Tibb fakültəsinin Əczaçılıq, Fitoterapiya və Biokimya laboratoriyalarında aparılan tədqiqatlar əsasında apiterapiyaya və fitoterapiyaya əsaslanan və tamamilə yerli təbii məhsullar əsasında təşkil olunmuşdur. "Yaşıl əczaxana"nın yaradılmasında əsas məqsəd yerli məhsulların tədqiqi fonunda elmi və alternativ tibbə əsaslanan müxtəlif müalicəvi vasitələrin istehsalı, tanıdılması və satışının təşkil olunmasıdır. Burada apiterapiyaya əsaslanan 15 adda məhsul, 40 və 250 qramlıq qablarda qablaşdırılmış təbii Naxçıvan balı, arı vərəmumu spreyi, vərəmum ekstraktından hazırlanan 10, 15 və 20 faizli damlalıqlar, çiçək tozcuğu, 5 adda müxtəlif bitkilərin maye çıxarışları, 3 adda efir yağı, universitetin əczaçılıq ixtisası üzrə təhsil alan tələbələri tərəfindən hazırlanan 5 adda kimyəvi preparatlar və digər məhsullar vardır.



Bildirilmişdir ki, "Robototexnika" laboratoriyasının yaradılmasında məqsəd tələbələrin nəzəri biliklərinin praktik olaraq həyata keçirilməsidir. Burada tələbələr sərbəst işlərini, kurs işi və layihələrini hazırlamaq üçün bilik və bacarıqlarını inkişaf etdirirlər. Startap layihələrinin həyata keçirilməsi üçün də burada hərtərəfli şərait yaradılmışdır. Təyin olunmuş layihələr əsasında tələbələrə proqramlaşdırma və elektronika üzrə kurslar təşkil olunur.

Ali Məclisin Sədrinə tələbələrin əl işlərindən ibarət "Ağıllı ev", "Sürücüsüz avtomobil", "Sensorlu təmizlik qutusu" adlı və digər layihələr təqdim olunmuşdur.

Ali Məclisin Sədri muxtar respublikada yeni texnologiyaların tətbiqinin genişləndiyini bildirmiş, bu sahədə yerli mütəxəssislərin, xüsusilə də proqram təminatçılarının yetişməsinin vacibliyini qeyd etmiş, yeni yaradılan mərkəz, kabinə və laboratoriyalardan düzgün istifadə olunması barədə tapşırıqlar vermişdir.

**Naxçıvan Muxtar Respublikası**
**Ali Məclisinin mətbuat xidməti**

---

# BEYNƏLXALQ İNDEKSLİ ELMİ BAZALARA DAXİL OLAN JURNALLARDA ELMİ ƏSƏRLƏRİNİN NƏŞRİ İLƏ FƏRQLƏNƏN PROFESSOR-MÜƏLLİM HEYƏTİ MÜKAFATLANDIRILIB

Naxçıvan Dövlət Universitetində Web of Science, Scopus və sahə indeksli bazalarda yer alan jurnallarda fəal iştirak edən əməkdaşlara bir dəfəyə məxsus olaraq əmək haqlarına mükafat əlavə olunub. Bu məqsədlə ali təhsil ocağında keçirilən tədbirdə professor-müəllim heyətinin elmi əsərlərinin, patentlərin sərgisi keçirilib. Beynəlxalq indeksli elmi bazalara daxil olan jurnallarda fəal iştirak edən müəllim heyəti ilə görüşdə giriş sözü ilə çıxış edən universitetin rektoru Elbrus İsayev qeyd edib ki, ali təhsil ocağının dünya universitetləri ilə rəqabət imkanını təmin edə biləcək madi-texniki bazası mövcuddur. Bildirilib ki, 2020-ci ildə universitetin professor-müəllim heyətindən 55 əməkdaşın 67 elmi məqaləsi beynəlxalq elm bazalarında nəşr olunub. Bu elmi məqalələrin 12-i Web of Science, 7-si Scopus, 14-ü isə sahə indekslidir. Ötən illərlə müqayisə apardıqda onu vurğulamaq yerinə düşər ki, 2020-ci ildə çap olunan elmi nəşrlər 2018-ci illə müqayisədə 6,6 dəfə, 2019-cu ilə görə isə 4 dəfə çoxdur. Bu da onu göstərir ki, universitet əməkdaşları onlar üçün yaradılan əlverişli mühitdən bəhrələnib, göstərilən diqqət və qayğını xüsusi olaraq dəyərləndirib. Rektor bildirib ki, əməkdaşların nüfuzlu jurnallarda dərc etdirdiyi məqalələrin 44 faizi ingilis, 43 faizi rus, 8 faizi isə türk dilində olub. Bu məqalələr Rusiya, İsveçrə, Hindistan, Bolqarıstan, İngiltərə, Türkiyə, Ukrayna, Estoniya, Tailand, Çin, Polşa, Xorvatiya və Azərbaycan mərkəzli jurnallarda nəşr edilib. Vurğulanıb ki, 2020-ci il universitetdə elmi-tədqiqat işlərinin yerinə yetirilməsində laboratoriyaların geniş imkanlarından da istifadə edilib. Rektor diqqətə çatdırıb ki, elmi işlər bundan sonra daha da irəliləməli və məqalə sayında kəmiyyət artımından çox keyfiyyət amilinə üstünlük verilməlidir.




Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru, hüquq üzrə fəlsəfə doktoru, dosent Seymur Talıbov universitetin beynəlxalq əlaqələrindən danışıb və əcnəbi tələbələrin artım dinamikasını muxtar respublikanın dayanıqlı inkişafı, sosial həyat şəraiti, təhlükəsizlik mühitinin bəhrəsi olaraq dəyərləndirib. Xarici universitetlərlə ikili diplom layihəsi, tələbə-müəllim mobilliyinin ali təhsil ocağının beynəlxalq əlaqələr sistemində əhəmiyyətli rol oynadığı xüsusi olaraq vurğulanıb. Prorektor ali təhsil ocağının beynəlxalq reytinqdə layiqli yer tutması üçün kollektivin birgə çalışmalarının əhəmiyyətini xüsusi olaraq qeyd edib. Yaradılan şərait, qurulan infrastruktur, müəllimlərin elmi tədqiqat və layihələri universiteti daim irəli aparmalıdır- deyən Seymur Talıbov elmi məqalələrin dərcinə görə seçilən müəllimləri təbrik edib, onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb.

Elmi tədqiqatların əlaqələndirilməsi bölməsinin müdiri, İqtisad üzrə fəlsəfə doktoru Rza Məmmədov, Tibb fakültəsinin dekanı, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov, Bələdiyyə və turizm kafedrasının müdiri, baş müəllim Flora Kərimova ziyalı mühitin formalaşması üçün universitetdə yaradılan şəraitə görə öz minnətdarlıqlarını bildiriblər. Çıxışlarda qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun "Elmdə son hədd, axırıncı tədqiqat anlayışı yoxdur. Elm davamlı inkişafdır. Bu inkişafla ayaqlaşmaq isə günün tələbidir" tövsiyyəsi bizim elmi istiqamətimiz və gələcək fəaliyyət proqramımızdır. Vurğulanıb ki, biz də yaradıcı mühit olaraq bizim üçün qurub-yaradılan şəraitdən maksimum bəhrələnməli və göstərilən diqqət və qayğıya layiq olmalıyıq.

Elmi tədqiqatların əlaqələndirilməsi bölməsinin baş elmi işçisi, "Botanika" ixtisası üzrə dissertant Aysel Heydərova muxtar respublika gənclərinin elmi yaradıcılığı üçün yaradılan şəraitə görə gənc tədqiqatçılar adından minnətdarlığını ifadə edib.

Sonda elmi məqalələrin xaricdə dərcinə görə fərqlənən müəllimlər universitet tərəfindən diplomla və plaketlə təltif ediliblər.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# “NAXÇIVAN MUXTARİYYƏTİNİN BEYNƏLXALQ TARİXİ ƏHƏMİYYƏTİ” İLƏ BAĞLI ELMİ-NƏZƏRİ KONFRANS KEÇİRİLİB

“Naxçıvan Muxtar Respublikadır. Azərbaycanın tərkibindədir. Bu, beynəlxalq müqavilələr nəticəsində yaranmış statusdur, onu heç kəs dəyişdirə bilməz”- ümummilli liderin bu sözləri Naxçıvan Dövlət Universitetində “Naxçıvan muxtariyyətinin beynəlxalq tarixi əhəmiyyəti” mövzusunda elmi-nəzəri konfransda səsləndirilib. Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev 1924-cü il fevralın 9-da dövlətçilik tariximizdə baş vermiş mühüm hadisədən - Naxçıvan Muxtar Respublikasının yaranmasından danışıb. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun 2021-ci il fevralın 8-də tarixi-siyasi əhəmiyyətə malik olan Qars müqaviləsinin 100 illiyinin keçirilməsi haqqında imzaladığı Sərəncam diqqətə çatdırılıb və Türkiyə arasında imzalanmış Qars müqaviləsinin Naxçıvanın muxtariyyət statusuna təminat verən çox mühüm hüquqi, siyasi və beynəlxalq sənəd olduğu bildirilib. Elbrus İsayev Dağlıq Qarabağda erməni qüvvələrinə qarşı qələbə ilə başa çatan altı həftəlik müharibədən sonra Azərbaycanla Ermənistanın imzaladığı anlaşma sayəsində Naxçıvanın Azərbaycanın qalan hissəsi ilə Ermənistan üzərindən quru koridorun qurulmasının əhəmiyyətindən danışıb. Rektor vurğulayıb ki, “Mehri dəhliz”i Azərbaycanı Türkiyə ilə birləşdirəcək dəmir yolunun açılması kimi zəruri bir üstünlük qazandıracaq və “Şərq-Qərb” nəqliyyat dəhlizinin tərkib hissəsi olan yeni yol qardaş ölkə ilə əlaqələrimizi daha da gücləndirəcək, ölkəmizin geoiqtisadi əhəmiyyətini artıracaqdır.

Tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərov “Unitar dövlətlərdə muxtariyyətlər və Naxçıvan Muxtar Respublikası” mövzusunda çıxışında diqqətə çatdırıb ki, Ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə Naxçıvanla bağlı verdiyi sərəncamlar, bu diyara tarixi səfərləri, ərazi bütövlüyü və təhlükəsizliyi üçün gördüyü tədbirlər, muxtariyyət statusunun hüquqi cəhətdən möhkəmləndirilməsi və həlli vacib olan digər məsələlərin həyata keçirilməsi Naxçıvanın hərtərəfli inkişafını təmin edib, regionu çiçəklənən diyara çevirib. Qeyd edilib ki, Naxçıvan əhalisinin və ziyalılarının inadlı mübarizəsi, o cümlədən görkəmli diplomat Behbud ağa Şahtaxtinskinin prinsipial mövqeyi Naxçıvanın ərazisi və bu ərazinin beynəlxalq müqavilə ilə qorunan toxunulmazlıq hüququnu təsbit edib.



“Naxçıvan muxtariyyəti beynəlxalq müqavilələrdə” mövzusunda çıxışında “Beynəlxalq münasibətlər” kafedrasının dosenti Şamxal Məmmədov vurğulayıb ki, Türkiyə ilə sovet Rusiyası arasında bağlanan Moskva və bir tərəfdən Türkiyə və digər tərəfdən Azərbaycan, Gürcüstan və Ermənistan tərəfindən imzalanmış Qars müqavilələri ilə Naxçıvana Azərbaycanın tərkibində siyasi muxtariyyət statusu verilib.

“Fəlsəfə və sosial iş” kafedrasının baş müəllimi, fəlsəfə üzrə fəlsəfə doktoru Bağır Babayev “Naxçıvanın tarixi-coğrafi şəraiti və muxtariyyət statusunun əhəmiyyəti” ilə bağlı çıxışında qeyd edib ki, çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşadıb, ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynayıb.

**Telli Əlizadə**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***



# ŞANLI QƏLƏBƏMİZİN 100-CÜ GÜNÜ QEYD OLUNUB

Qarabağ tarixi, əzəli Azərbaycan torpağıdır. Beləliklə, Qarabağ Azərbaycandır və nida işarəsi! Azərbaycan Respublikası Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin bu sözləri Naxçıvan Dövlət Universitetində keçirilən “Qələbədən 100 gün sonra” adlı tədbirdə səsləndirilib. Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda şəhid olmuş əsgər və zabitlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edildikdən sonra şanlı qələbənin 100-cü gününə həsr olunmuş videoçarx nümayiş olunub. Universitetin rektoru Elbrus İsayev tədbiri giriş sözüylə açaraq 44 Günlük Vətən müharibəsinində qazandığımız qələbənin Ali Baş Komandan İlham Əliyevin uğurlu və uzaqgörən siyasəti, müzəffər Azərbacan ordusunun qəhrəmanlğı və xalqın güc birliyi sayəsində əldə olunduğunu xüsusi fəxr hissi ilə vurğulayıb. Rektor diqqətə çatdırıb ki, torpaqlarımızın bütövlüyü uğrunda canından keçən igidlərimiz heç vaxt unudulmayacaq, onların əməlləri gələcək nəsillərə nümunə göstəriləcək.

Azərbaycan Silahlı Qüvvələrinin polkovnik-leytenantı, II Vətən müharibəsi iştirakçısı Səid Əhmədov, Azərbaycan Silahlı Qüvvələrinin mayoru, II Vətən müharibəsi iştirakçıları olmuş Təbriz Zeynalov və Elnur Şirinov, Naxçıvan Dövlət Universiteti “Məşqçilik” ixtisası üzrə I kurs qiyabi tələbəsi, II Vətən müharibəsi iştirakçısı Fəxri Qazıbəyov qalib ölkənin ordusunda döyüşməkdən fəxr duyduqlarını dilə gətiriblər. Çıxışlarda qeyd olunub ki, bizi qələbəyə daha da inamlı edən Ali Baş Komandanın maddi və mənəvi dəstəyi, xalqımızın ruh yüksəkliyi oldu. Əgər bunlar olmasaydı, biz bir addım belə irəli gedə bilməzdik-deyən zabitlər xalqla ordunun birliyindən güc aldıqlarını bildiriblər. Şəhidlərin qanı hesabına qazanılmış böyük qələbə müasir tariximizin şanlı qəhrəmanlıq dastanı kimi heç zaman unudulmamalı və gələcək nəsillərimiz üçün örnək olmalıdır-deyən II Vətən müharibəsi iştirakçıları qeyd edib ki, ixtisasından və peşəsindən asılı olmayaraq hər bir gənc vətənpərvər olmalı və bu amal uğrunda mübarizə aparmalıdır.

Tələbələrin sualları cavablandırıldıqdan sonra qələbənin 100-cü günü münasibətilə universitet tərəfindən əsgər və zabitlərə plaket təqdim edilib, xatirə şəkli çəkilib.

# GƏNCLƏR GÜNÜ QEYD OLUNUB

“Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir.” Ulu Öndərin dəyərli fikirləri Naxçıvan Dövlət Universitetində 2 Fevral - Gənclər Gününə həsr olunmuş “Gənclərlə iş sahəsində Gənclər Təşkilatlarının rolu” adlı tədbirdə səsləndirilib.

Universitetin İncəsənət fakültəsinin akt zalında keçirilən tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev tələbə-gənclərin istedadlarının üzə çıxarılmasına göstərilən dövlət qayğısından danışıb. Qeyd edilib ki, əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş dövlət gənclər siyasəti Azərbaycan gəncliyinin gələcək inkişafında dərin izlər buraxıb. Ulu Öndərin 1997-ci il fevralın 2-də imzaladığı Fərmana əsasən, fevralın 2-si Azərbaycan Gəncləri Günü elan edilib. Həmin vaxtdan etibarən bu gün MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə olaraq Azərbaycanda təntənəli şəkildə qeyd edilməyə başlanıb. Bildirilib ki, əsası Ümummilli Lider tərəfindən qoyulmuş dövlət gənclər siyasətinin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsinin nəticəsidir ki, bu gün Azərbaycan gəncləri ictimai-siyasi, sosial-mədəni və digər sahələrdə fəal iştirak edirlər. Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Naxçıvan Muxtar Respublikasında gənc istedadlara dövlət qayğısının artırılması haqqında” 2012-ci il 31 yanvar tarixli Fərmanı muxtar respublikamızda gənclərə göstərilən yüksək diqqət və qayğının parlaq ifadəsidir. Elbrus İsayev 2020-2021-ci tədris ilində Naxçıvan Dövlət Universitetinə 32 nəfər gənc müəllimin işə qəbul edilməsini də bu sahədə görülən işlərin məntiqi davamı və gənclərə göstərilən yüksək etimadın bəhrəsi kimi qiymətləndirib. Rektor gəncləri bayram günü münasibətilə təbrik edib, onlara xoşbəxt gənclik, sağlamlıq və uğurlu gələcək arzulayıb.

Universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov qeyd edib ki, muxtar respublikamızda gənclərin yaradıcılıq axtarışlarının stimullaşdırılmasına, milli ruhda tərbiyəsinə, onların sosial müdafiəsinin və məşğulluğunun təmin edilməsinə ciddi önəm verilir. Prorektor da tələbə-gəncləri təbrik edib, onlara gələcək peşə fəaliyyətlərində müvəffəqiyyətlər arzulayıb.

Tələbə Gənclər Təşkilatının sədri Əziz Qasımov “Gənclər təşkilatları dövlət gənclər siyasətinin əsas istiqaməti kimi” adlı çıxışında vurğulayıb ki, bu gün ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli yer tutmalarının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı üçün dövlət səviyyəsində bütün zəruri tədbirlər həyata keçirilir. Gənclər də onlara göstərilən hər bir qayğını dərindən dərk etməli və cəmiyyətin ən layiqli təbəqəsi kimi formalaşaraq, dövlətçiliyimizin möhkəmləndirilməsi və ölkəmizin inkişafında potensial imkanlarını səfərbər etməlidirlər.



Universitetin Tələbə Gənclər Təşkilatı nəzdində İntellektual Oyunlar klubunun sədri Fərid Hacıyev, Tələbə Gənclər Təşkilatının nəzində Debat klubunun sədri Atilla Əsgərli, təşkilatın nəzdində Kitab klubunun sədri Elmar İsgəndərov təqdimatla çıxış ediblər.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***



# BEYNƏLXALQ ANA DİLİ GÜNÜ QEYD EDİLİB

Naxcıvan Dövlət Universiteti Tarix-filologiya fakültəsində Beynəlxalq ana dili gününə həsr olunmuş elmi-nəzəri seminar keçrilib. Tədbiri giriş sözü ilə açan universitetin rektoru Elbrus İsayev Azərbaycan dilinin inkişafı və qrammatikasından, dilin bir millətin, xalqın həyatında önəmindən danışıb. Bildirilib ki, Beynəlxalq Ana Dili Günü YUNESKO-nun 1999-cu ildə keçirilən Baş Konfransının 30-cu sessiyasında təsis edilib və 2000-ci il fevralın 21-dən qeyd edilir. Vurğulanıb ki, ümummilli lider Heydər Əliyev ölkəmizə rəhbərliyinin birinci dövründən başlayaraq Azərbaycan dilinin inkişafı istiqamətində məqsədyönlü iş aparıb, mövcud tarixi təcrübəni və müasir dövrün tələblərini nəzərə alaraq mükəmməl dil siyasəti həyata keçirib. Ölkəmiz müstəqillik qazanandan sonra bütün sahələrdə olduğu kimi, dil sahəsində də yeni qanunların qəbul edilməsi, ana dilimizin qorunması, inkişaf etdirilməsi, bütün idarə və təşkilatlarda dövlət dili kimi tətbiq edilməsi istiqamətində qətiyyətli addımlar atılıb. 12 noyabr 1995-ci ildə qəbul edilmiş Azərbaycan Respublikasının Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit edilib. Vurğulanıb ki, ölkə başçısının qəbul etdiyi çoxsaylı dövlət sənədləri müstəqil ölkəmizdə dövlət dili istiqamətində ardıcıl olaraq aparılan məqsədyönlü siyasətin məntiqi davamı, dilimizə dövlət səviyyəsində göstərilən qayğının ifadəsidir. Diqqətə çatdırılıb ki, bu gün muxtar respublikada dövlət dilimizin qorunub yaşadılmasına xüsusi diqqət yetirilir, dövlət-dil siyasəti uğurla həyata keçirilir. Naxçıvan şəhərində ucaldılmış “Ana dili” abidəsi dilimizə ehtiramın ən böyük ifadəsidir. Rektor gəncləri dilimizin saflığını qorumağa səsləyib.

“Müasir Azərbaycan dilinin aktual problemləri” mövzusunda çıxış edən “Azərbaycan dili və ədəbiyyatı” kafedrasının professoru, filologiya üzrə elmlər doktoru Sədaqət Həsənova türk dilərinin tarixindən danışıb. Bildirilib ki, dil dünya sivilizasiyasının, ictimai həyatın əksi olan müxtəlif elm sahələrini birləşdirdiyi kimi, ayrı-ayrı dillərin fonetik, leksik, qrammatik xüsusiyyətlərini də özündə birləşdirir. Ona görə də belə alınma və beynəlmiləl termin axını dilə daxil olan alınmaların tənzimlənməsi, dilimizin tələblərinə uyğunlaşdırılması kimi aktual problemləri meydana çıxarır. Vurğulanıb ki, məhz buna görə də dilimizin qorunması, saflığının təmin olunması və inkişaf etdirilməsi qarşıda duran mühüm məsələlər sırasındadır.

Tədbirdə tələbələrin ana dilimizə həsr olunmuş şeirlərinin bədii qiraəti dinlənilib.

**Yunis Allahverdiyev**
***Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi***



# NDU İLƏ TÜRKİYƏ ALİ TƏHSİL MÜƏSSİSƏLƏRİ ARASINDA ƏLAQƏLƏR DAHA DA GÜCLƏNİR

Türkiyə Respublikası Xaricdəki Türklər və Qohum İcmaları İdarəsinin Beynəlxalq Dairə Başkanlığı koordinatoru Engin Vural və Mədəniyyət, Sosial İşlər Dairə Başkanlığı koordinatoru Sevilay Yıldırım Naxçıvan Muxtar Respublikasına səfərləri çərçivəsində Naxçıvan Dövlət Universitetində olublar.

Universitetin maddi-texniki bazası, mövcud fakültələri haqda məlumatlandırılan qonaqlar ali təhsil ocağının "Memarlıq və mühəndislik" fakültəsində "Dəmiryolu nəqliyyatının avtomatlaşdırılması laboratoriyası"nda olub, Konservatoriyada onlar üçün təşkil edilən konsert proqramını izləyiblər. Tibb fakültəsində olan qonaqlara məlumat verilib ki, 2019-cu ildə yenidən qurularaq istifadəyə verilən fakültə yüksək maddi-texniki baza ilə zənginləşdirilib. Tələbələrə bu ixtisas üzrə həm nəzəri, həm də təcrübi dərslərin keçirilməsi üçün burada hər cür şərait mövcuddur. Yaradılan şəraitin nəticəsidir ki, bu il fakültəyə qəbul olan 336 xarici tələbədən 260-şı Türkiyə Respublikasındandır.

İkitərəfli görüşdə universitetin rektoru Elbrus İsayev qonaqları salamlayaraq ali təhsil ocağının fəaliyyəti, buradakı mövcud təhsil və tədris prosesi, elmi fəaliyyəti haqqında məlumat verib. Universitetin yaranma tarixi, fəaliyyət istiqamətləri və beynəlxalq əlaqələri haqqında danışan rektor təhsil sahəsində həyata keçirilən layihələrdən, ali təhsilin strateji istiqamətlərindən bəhs edib. Bildirilib ki, rəhbərlik etdiyi ali təhsil ocağının qardaş ölkənin 20-yə yaxın aparıcı ali təhsil müəssisələri ilə əməkdaşlıq əlaqələri var.

Türkiyə Respublikası Xaricdəki Türklər və Qohum İcmaları İdarəsinin Beynəlxalq Dairə Başkanlığı koordinatoru Engin Vural ali təhsil ocağında xoş qarşılanmaya görə minnətdarlıq edib. Kordinatoru olduğu qurumun həyata keçirdiyi "Türkiyə Təqaüdləri" proqramı haqqında məlumat verən qonaq qeyd edib ki, Türkiyə təqaüd proqramı tələbə və tədqiqatçılara Türkiyənin ən prestijli universitetlərində təqaüd təhsili və tədqiqat imkanı verən hərtərəfli və dövlət tərəfindən dəstəklənən rəqabətli bir təqaüd proqramıdır. Bildirilib ki, proqrama bakalavr, magistr, doktorantura və tədqiqat proqramları üzrə hər bir şəxs internet üzərindən onlayn olaraq müraciət edə bilər. Müraciətlər Türk, Ərəb, İngilis, Fransız, Rus, Fars, İspan və Bosniya dili olmaq üzrə 8 dildə edilə bilər.

Xaricdəki Türklər və Qohum İcmaları İdarəsinin Mədəniyyət, Sosial İşlər Dairə Başkanlığı koordinatoru Sevilay Yıldırım vurğulayıb ki, təqaüd proqramları ölkələrarası əməkdaşlığı və cəmiyyətlər arasındakı ortaq anlayışı gücləndirmək məqsədini qarşısına qoymuş gələcəyin liderlərini yetişdirməkdir. Bu proqramlar ali təhsilin hər pilləsi üzrə beynəlxalq səviyyədə ixtisaslı kadr hazırlamaqla yanaşı, həmçinin bu tələbələrin universitetə hazırlanma və yerləşdirmə proseslərini də əhatə edir. Diqqətə çatdırılıb ki, dünya miqyasında bu təqaüd proqramlarından faydalanan 100-ə yaxın ölkədən 150 mindən çox məzun olub.

Sonda bu səfərin gələcəkdə həm tələbə, professor-müəllim heyəti, həm də bütövlükdə, hər iki ölkə arasında elm və təhsil sahəsində əməkdaşlığa yeni təkan verəcəyi diqqətə çatdırılıb.

# ELMİ İŞLƏRİN YEKUNUNA DAİR HESABAT YIĞINCAĞI KEÇİRİLİB



Naxçıvan Dövlət Universitetində elmi əsərlərin sərgisi təşkil edilib. Universitetin İncəsənət fakültəsinin sərgi salonunda təşkil edilən tədbirdə professor-müəllim heyətinin kitabları, məqalələri, konfrans materialları, patentləri və tələbələrin startap layihələri nümayiş etdirilib.

Sonra akt zalında davam edən tədbirdə universitetin rektoru Elbrus İsayev qeyd edib ki, universitet hazırda 42 kafedradan ibarət elmi-təşkilati struktura malikdir. Kafedra əməkdaşları 2016-2020-ci illər üçün universitet elmi şurası tərəfindən təsdiq olunmuş layihəyə əsasən 16 elmi istiqamət üzrə elmi-tədqiqat işləri yerinə yetirirlər. Bu elmi istiqamətlər üzrə 280 əməkdaş 240 mövzu üzrə elmi tədqiqat işi yerinə yetirib.

Bildirilib ki, 2020-ci ildə universitet əməkdaşları tərəfindən aparılan elmi-tədqiqat işlərinin mühüm nəticələri müəyyən olunaraq AMEA-nın İnstitutlarına, AMEA-nın Naxçıvan Bölməsinə və Azərbaycan Respublikası Təhsil Nazirliyinin müvafiq qurumlarına göndərilib. Universitetdə aparılmış elmi-tədqiqat işləri dövlət büdcəsindən maliyyələşdirmə və universitetin öz daxili imkanları hesabına yerinə yetirilib.

Vurğulanıb ki, universitetdə elmi-tədqiqat işlərinin yerinə yetirilməsində laboratoriyaların geniş imkanlarından istifadə edilib. Belə ki, elmi tədqiqat işlərinin bir qismi -Üzvi kimya, Ümumi qeyri-üzvi kimya, Analitik kimya, Kimya texnologiyası, Fiziki və kolloid kimya, Elektrokimya və metallar kimyası, akademik Yusif Məmmədəliyev adına elmi-tədqiqat, Əczaçılıq, Biokimya, İnsan və heyvan fiziologiyası, Fitoterapiya, Mikrobiologiya, Dəmir yollarının avtomatik idarə olunması, Elektronika, Fizika laboratoriyalarında yerinə yetirilib. Əczaçılıq və Biokimya laboratoriyalarında dərman bitkilərinin çıxarışları, ekstraktları, uçucu yağları və eyni zamanda arıçılıq məhsullarının ekstraktları və fəal birləşmələri alınıb. Həmçinin müxtəlif təbii mənşəli dərman preparatları hazırlanıb.

Rektor diqqətə çatdırıb ki, professor-müəllim heyətinin apardıqları elmi-tədqiqatların nəticələri əsasən universitetin dörd seriyadan ibarət "Elmi əsərlər" jurnalında nəşr olunur. Hər il "Elmi əsərlər" jurnalının Humanitar elmlər, Fizika-riyaziyyat və Texnika elmləri, Təbiət və tibb elmləri, İctimai elmlər seriyalarını əhatə edən hər bir istiqamət üzrə 2 nömrə olmaqla 8 nömrəsi nəşr olunur. "Elmi əsərlər" jurnalının bütün seriyaları Beynəlxalq Standart Seriya Nömrəsi (ISSN) ilə çap olunur. Bu jurnalların bütün nömrələri universitetin saytında yerləşdirilir. "Elmi əsərlər" jurnalının Humanitar elmlər seriyası üzrə 77, İctimai elmlər seriyası üzrə 34, Təbiət və tibb elmləri seriyası üzrə 48, Dəqiq elmlər seriyası üzrə isə 37 elmi məqalə çap olunub.

Elbrus İsayev bildirib ki, 2020-ci ildə universitet əməkdaşlarının 5 monoqrafiyası, 1 dərsliyi, 16 dərs vəsaiti, 27 metodik vəsaiti və proqramı, 404 elmi məqaləsi və 173 konfrans materialı çap olunub. Elmi məqalələrdən 331- i indekssiz, 66-ı isə xaricdə dərc olunub. Xaricdə dərc olunan məqalələrdən 35-i beynəlxalq digər indeksli, 12-si sahə indeksli, 7-si Scopus, 12-si Web of science indekslənmə bazasına malikdir. Dərc olunan 174 konfrans materialından 94-ü respublika elmi konfransların, 80-i isə beynəlxalq konfransların payına düşür. Əməkdaşlarımızın bir qismi beynəlxalq jurnallarda redaksiya heyətində təmsil olunub.

Sonda universitetdə beynəlxalq indeksli jurnallarda məqalə çıxartma sayına görə fərqlənən kafedralar seçilib. "İnformatika", "Bələdiyyə və turizm", "Biologiya" ilin kafedraları seçilib. Universitet tərəfindən həmin kafedralara fəxri fərman təqdim edilib.

# "AĞBULAQ" XİZƏK MƏRKƏZİNDƏ TƏLİM



Naxçıvan Dövlət Universiteti və Naxçıvan Gənclər Fondunun birgə təşkilatçılığı universitetin "Bədən tərbiyəsi və idman " və "Məşqçilik" ixtisasının tələbələri "Ağbulaq" xizək mərkəzində təlim keçiblər. Universitetin rektoru Elbrus İsayev "2020-2025-ci illər üçün Naxçıvan Muxtar Respublikasında idmanın inkişafına dair Dövlət Proqramı"na əsasən universitetdə müxtəlif idman növü üzrə keçirilən məşğələlərdən danışıb. Qeyd edilib ki, muxtar respublikada yeni xizəkçilik idman növünə olana maraq nəzərə alınaraq ali təhsil ocağının "Məşqçilik" ixtisasının tələbələri üçün "Xizəkçilik" fənninin tədrisinə başlanılıb, bu istiqamətdə artıq tədris proqramları hazırlanıb. Muxtar respublikanın turizm potensialını nəzərə alaraq bu sahədə görülən işlərin gələcəkdə bu idman növü üzrə peşəkar kadrların hazırlanmasına öz töhvəsini verəcəyinə əminlik ifadə olunub. Rektor tələbələrin nəzəri biliklərinin təcrübədə tətbiqi üçün keçirilən təlimin əhəmiyyətini önə çəkib və tələbələrə həm tədris, həm də asudə vaxtlarının səmərəli keçirilməsi istiqamətində uğurlar arzulayıb.

Azərbaycan Respublikası Milli Məclisinin deputatı, Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun icraçı direktoru Cəbi Quliyev muxtar respublikada gənclərə və idmanın inkişafına göstərilən dövlət qayğısından və gənclərin asudə vaxtının səmərəli təşkil edilməsi məqsədilə görülən işlərdən danışıb. Bildirilib ki, Ağbulaq İstirahət Mərkəzində muxtar respublikada fəaliyyət göstərən ali və orta ixtisas təhsili müəssisələrinin tələbələri üçün "Qış məktəbləri" də bu istiqamətdə görülən işlərə bariz nümunədir.

Sonra tələbələr "Ağbulaq" xizək mərkəzində onlar üçün təşkil edilən təlimdə iştirak edərək mərkəzin ixtisaslı müəllimlərindən dərs alıblar. Təlimlər tələbələr üçün maraqlı və yaddaqalan olub.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# İĞDIR UNİVERSİTETİ İLƏ BİRGƏ "AZƏRBAYCAN-TÜRKİYƏ İQTİSADİ ƏMƏKDAŞLIĞI" MÖVZUSUNDA ONLAYN SEMİNAR KEÇİRİLİB

Naxçıvan Dövlət Universiteti və İğdır Universitetinin birgə qoşulduğu "Azərbaycan-Türkiyə iqtisadi əməkdaşlığı" mövzusunda onlayn seminar siyasət, ticarət, mədəniyyət və turizm istiqamətlərində keçirilib.



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev öz çıxışında qazandığımız zəfərin əldə olunmasında qardaş Türkiyənin Azərbaycana verdiyi psixoloji və mənəvi dəstəyi xüsusi qiymətləndirib. Qeyd edilib ki, bu müharibədə Azərbaycan təkcə öz tarixi torpaqlarını deyil, tarixi ədaləti, döyüş gücünü, xalqımızın müdrikliyini ortaya qoydu. Rektor Azərbaycan-Türkiyə dostluğunun dünya ölkələrinə nümunə olduğunu qeyd edib. Vurğulanıb ki, Naxçıvan dəhlizi Türkiyə ilə Azərbaycan arasında ikitərəfli ticarət əlaqələrinin daha sürətli inkişafına imkan yaradacaq və ölkələrarası turizm əlaqələrin genişlənməsinə ciddi təkan verəcək.

İğdır Universitetinin rektoru Mehmet Hakkı Alma Türkiyənin hər zaman Azərbaycana maddi və mənəvi dəstək olacağını bildirib. Rektor xalqımızı Azərbaycanın 44 günlük mübarizədə qalib olması münasibətilə təbrik edib.

Azərbaycanın Qarsdakı Baş Konsulu Nuru Quliyev çıxışında bildirib ki, Türkiyənin Azərbaycanın yanında olmağı, ona hər zaman öz dəstəyini göstərməyi Azərbaycanın 30 illik həsrətinə son qoyulmasında böyük rol oynadı.

İğdır Valisi Hüseyn Engin Sarıibrahim, İğdır millət vəkili Dursun Akdemir, Doğu Anadolu Projesi (DAP) Başkanı Prof.Dr. Osman Demirdöyen Türkiyənin qardaş ölkə olan Azərbaycana göstərdiyi diplomatik dəstəyinin əhəmiyyətini nəzərə çatdırıblar. Bu zəfərin nəticəsində imzalanmış müqaviləyə əsasən Naxçıvan korridorunun yaradılmasının təkcə Azərbaycan üçün deyil, həm də Türkiyə üçün əhəmiyyəti vurğulanıb.

**Telli Əlizadə**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# ORTA MƏKTƏB MÜƏLLİMLƏRİ ÜÇÜN ONLAYN İXTİSASARTIRMA KURSU

Naxçıvan Dövlət Universitetində orta məktəblərdə Fizika, Kimya və Biologiya fənlərini tədris edən müəllimlər üçün təşkil edilən onlayn ixtisasartırma kursunun sonunda iştirakçılar təltif olunub. Bu məqsədlə keçirilən tədbirdə çıxış edən universitetin Tədris və tərbiyə işləri üzrə prorektoru Rafiq Rəhimov universitetdə tədris üçün yaradılan yüksək şəraitdən, elmdə və təhsildə qazanılan uğurlardan söhbət açıb. Qeyd olunub ki, ali və orta ümumtəhsil məktəbləri ilə belə əlaqəli tədbirlər bilik və təcrübə mübadiləsi, gələcək pedaqoji fəaliyyət prinsiplərinin düzgün müəyyənləşdirilməsi baxımından mühüm əhəmiyyət kəsb edir. Bildirilib ki, kursun keçirilməsində əsas məqsəd orta məktəb müəllimləri ilə universitet arasında əlaqələri genişləndirməkdir. Prorektor təlimdə fəal iştirak edən hər kəsə öz təşəkkürünü bildirib.

Ümumi və nəzəri fizika kafedrasının müdiri, fizika üzrə fəlsəfə doktoru, dosent Fərman Qocayev diqqətə çatdırıb ki, kursun keçirilməsi muxtar respublikada bu ixtisas üzrə müəllimlərin peşə bacarıqlarının möhkəmlənməsində xüsusi əhəmiyyətə malikdir.

Sonda kursu başa vuran müəllimlər universitet tərəfindən sertifikatlarla təltif ediliblər.

Qeyd edək ki, 3 ixtisas üzrə keçirilən ixtisasartırma kursu 5 gün davam edib. Təlimə Biologiya və Fizika ixtisaslarından 30, Kimya fənnindən isə 25 müəllim qatılıb. Məlumat üçün onu da bildirək ki, təşkil edilən kurs həmin ixtisasları əhatə edən kabinə və laboratoriyalarda hər gün 2 saat olmaqla təsdiq edilmiş qrafik və müəyyən olunmuş mövzular əsasında keçirilib. Eyni zamanda kursun koordinatoru Kimya kafedrasının müdiri Sevinc Kərimova olmaqla, təlimlərin keçirilməsi üçün ixtisaslara uyğun olaraq rəhbər-təlimçilər də seçilib.



## GÖRKƏMLİ ELM XADİMİ LÜTFİ ZADƏNİN 100 İLLİK YUBİLEYİNƏ HƏSR EDİLMİŞ ELMİ-NƏZƏRİ SEMİNAR KEÇİRİLİB

Naxçıvan Dövlət Universitetində görkəmli elm xadimi Lütfi Zadənin 100 illik yubileyi qeyd edilib.

Universitetin rektoru Elbrus İsayev bildirib ki, fundamental nəzəriyyələri ilə elm tarixində ciddi dəyişikliklərə yol açmış görkəmli şəxsiyyətlərdən olan alimin ardıcıl tədqiqatlarının nəticəsi olaraq irəli sürdüyü qeyri-səlis məntiq nəzəriyyəsi müxtəlif elm sahələrinin müasir mərhələdə inkişafında dərin iz qoyub və yeni yanaşma üsulları meydana gətirib.

Bu nəzəriyyə üstün intellektual texnologiyalara güclü təsir göstərib, müasir idarəetmə və informasiya-kommunikasiya sistemlərinin əsaslarının formalaşdırılmasında mühüm rol oynayıb. Lütfi Zadənin dünya miqyasında əsərlərinə ən çox istinad edilən alimlərdən olduğunu diqqətə çatdıran rektor vurğulayıb ki, onun yaratdığı elmi məktəb və laboratoriyalar bir sıra ölkələrdə yarım əsrdən artıqdır ki, uğurla fəaliyyət göstərməkdədir.

E.İsayev söyləyib ki, azərbaycanlı olduğunu fəxrlə bildirən və ürəyi daim doğma Vətəni ilə bir döyünən Lütfi Zadə elm və texnologiyaların inkişafında, eləcə də mədəniyyətlərarası dialoqun qurulmasında misilsiz xidmətlərinə görə Azərbaycan Respublikasının ali mükafatlarından olan "Dostluq" ordeninə layiq görülüb.

"Qeyri-səlis və Aristotel məntiqlərinin müqayisəsi" adlı çıxışında memarlıq və mühəndislik fakültəsinin dekanı, riyaziyyat üzrə elmlər doktoru, professor Cavanşir Zeynalov vurğulayıb ki, alimin qeyri-səlis çoxluqlar nəzəriyyəsi riyaziyyat elminin inkişafına yeni impuls vermiş fundamental nəzəriyyədir. Təsadüfi deyil ki, artıq riyaziyyatın əksər sahələrində Lütfi Zadə məntiqinin ideyaları geniş tətbiq edilməkdədir. Professor vurğulayıb ki, Lütfi Zadə məntiqi digər məntiq modellərindən insan təfəkkürünü və düşüncə prosesini daha adekvat əks etdirməsi ilə fərqlənir. Alimin nəzəriyyələrinin əsas fəlsəfi mahiyyəti onların insan təfəkkürünü daha dürüst əks etdirməsindən və reallığa daha çox adekvat olmasından ibarətdir.

Elmi-nəzəri seminar müzakirə şəklində davam edib.

## "ARIÇILIQ TƏSƏRRÜFATLARINDA YAZ İŞLƏRİ" MÖVZUSUNDA TƏLİM




Naxçıvan Dövlət Universiteti "Baytarlıq təbabəti" kafedrasında arıçı sahibkarlarla "Arıçılıq təsərrüfatlarında yaz işləri" mövzusunda təlim keçirilib. Universitetin rektoru Elbrus İsayev giriş sözü ilə çıxış edərək muxtar respublikada arıçılığa göstərilən dövlət qayğısından danışıb. Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il noyabrın 18-də imzaladığı Sərəncamı ilə təsdiq olunmuş "2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı"ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi məqsədilə ali təhsil ocağında da bu istiqamətdə tədbirlər keçirilir. Universitetdə bu sahəyə xüsusi diqqətin olduğundan söhbət açan rektor diqqətə çatdırıb ki, Baytarlıq ixtisası üçün ayrıca binanın mövcudluğu göstərilən dövlət dəstəyinin birbaşa təzahürüdür. Bildirilib ki, hər il keçirilən "Arıçılıq məhsulları-bal festivalı"nın iştirakçısı olan universitet ötən ildə festivalın qalibi kimi I dərəcəli diplomla təltif edilib. Rektor nəzərə çatdırıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin universitetdə arıçılıq məhsulları və dərman bitkiləri çıxarışlarından istifadə etməklə yeni dərman preparatlarının hazırlanması haqqındakı tapşırığı əsasında ali təhsil ocağının laboratoriyasında arı vərəmumu və yağ əsaslı krem nümunələri və vərəmum bitki çıxarışı qarışıqlar hazırlanıb.

Naxçıvan Muxtar Respublikası "Arıçıları İctimai Birliyi"nin sədri Etibar Məmmədov universitetlə birgə keçirilən təlimin arıçılar üçün əhəmiyyətli olacağını önə çəkib və öz minnətdarlığını ifadə edib.

"Baytarlıq təbabəti" kafedrasının müəllimi, biologiya üzrə fəlsəfə doktoru, dosent Əli Tahirov "Erkən yaz dövrü ana arının yetişdirilməsi" adlı çıxışında qeyd edib ki, arıçılıqda məhsul istehsalına müsbət təsir edən əsas amillərdən biri erkən yaz dövründə arı ailələrinə qulluğun düzgün aparılmasıdır. Yaz mövsümündə arıçıların arı pətəklərində görəcəyi işlər bol məhsulun əldə olunması baxımından əhəmiyyətlidir. Yaz yoxlanışı zamanı pətəklərdə arı xəstəliklərinin olub-olmamasına nəzarət etməyin vacib olduğu bildirilib. Diqqətə çatdırılıb ki, arı xəstəliklərinin vaxtında aşkarlanmaması, xəstəliklərə qarşı mübarizə tədbirlərinin görülməməsi arı ailəsinin məhv olmasına gətirib çıxarır. Bundan başqa xəstəliklər nəticəsində zəifləmiş ailələrdə məhsuldarlıq da aşağı düşür.

"Arıçılıqda yaz qayğıları" adlı çıxışında Tibb fakültəsinin dekanı, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov arıçıların yaz qayğıları, yaz mövsümündə arı pətəklərində görülməli olan işlərdən danışıb. Vurğulanıb ki, arıxanada ailələrə baxış günəşli, sakit və havanın temperaturu 15 dərəcədən artıq olan günlərdə aparılmalıdır. Bu zaman ailənin gücü, ana arının varlığı və yaxud səmərəliliyi, işçi arıların, yumurta və sürfənin vəziyyəti, yem ehtiyatı yoxlanmalıdır. Yazda ana arı nə qədər çox yumurta qoyarsa, arı ailəsi güclü, arıların sayı isə çox olar. Bu isə məhsul istehsalında əsas göstərici sayılır.

"Müasir arıçılıq təcrübəsində istifadə edilən alət və avadanlıqlar" adlı çıxışında "Baytarlıq təbabəti" kafedrasının müdiri, baytarlıq üzrə fəlsəfə doktoru, dosent Yunis Rüstəmli qeyd edib ki, "Baytarlıq təbabəti" kafedrasına yeni arıçılıq alət və avadanlıqlar alınıb, arıçılıq problemləri laboratoriyası daha da zənginləşdirilib. Vurğulanıb ki, alınan avadanlıqlar ana arının alınması, paket arıçılığının inkişafı, vərəmum, çiçək tozunun alınması üçün mühüm əhəmiyyətə malikdir.

Sonra "Arıçılıq problemləri laboratoriyası"nda olan qonaqlar universitetdə olan arıçılıq ləvazimatları ilə tanış olublar. Sonda təlim iştirakçılarına universitet tərəfindən sertifikatlar təqdim olunub.

**Səadət Əliyeva**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

## "HAMİLƏLƏRDƏ VƏ UŞAQLARDA İİV İNFEKSİYASI" ADLI KİTABIN TƏQDİMATI

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında "Ümumi təbabət və klinik fənlər" kafedrasının müdiri, dosent, tibb üzrə fəlsəfə doktoru Gültəkin Əliyevanın Nuranə Əliyeva və Səməngül Tarverdiyeva ilə həmmüəllif olduğu "Hamilələrdə və uşaqlarda İİV infeksiyası" adlı kitabının təqdimat mərasimi keçirilib. Tədbiri giriş sözü ilə açan universitetin elmi katibi, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Məftun İsmayılov müəllifləri təbrik edib, Gültəkin Əliyevanın peşəkar həkimliklə bərabər pedaqoji fəaliyyətini də yüksək qiymətləndirib. Qeyd edilib ki, bu kitab təkcə dərs vəsaiti kimi tibb tələbələri üçün deyil, hətta bütün ictimaiyyət, sağlamlığının qeydinə qalan hər kəs üçün vacib bir mənbədir.

Tibb fakültəsinin dekanı, biologiya üzrə fəlsəfə doktoru, dosent Elsevər Əsədov qeyd edib ki, çox şaxəli və yenilənən bir elm olan tibb elmi hər zaman inkişafdadır və hər gün öyrənilməyə və tədqiqə ehtiyacı var. Məhz bu xüsusiyyətləri nəzərə almaqla Gültəkin Əliyevanın yaradıcılıq təşəbbüsləri təqdirəlayiqdir. Müəllifin yaradıcılığını yüksək qiymətləndirən dekan ona gələcək fəaliyyətində uğurlar arzu edib.

"Təməl tibb fənləri" kafedrasının müdiri, tibb üzrə fəlsəfə doktoru İlhamə Mustafayeva Gültəkin həkimin muxtar respublika səhiyyəsinin inkişafı üçün gördüyü işləri diqqətə çatdırıb və kitab haqqında məlumat verib. Qeyd olunub ki, bu kitabın ərsəyə gəlməsində 53 ədəbiyyat, yeni internet resurslarından istifadə olunub. Burada müxtəlif mənbələr, statistik göstəricilər öz yerini tapıb. Bildirilib ki, İİV- İnsan immunçatışmazlığ virusu QİÇS (Qazanılmış İmmun Çatışmazlıq sindromu) xəstəliyinin törədicisidir. Xəstəlik ilk dəfə 1981-ci ildə Los Angeles də 5 xəstədə müəyyən olunub. Azərbaycanda QİÇS virusu ilk dəfə 1987-ci ildə Neft Akademiyasında təhsil alan afrikalı tələbədə aşkarlanıb. Vurğulanıb ki, kitabda İİV-nin quruluşu, serotipləri, genləri və zülalları, yoluxma yolları, yoluxmasına şərait yaradan amillər haqda ətraflı məlumat verilir.




Həmin kafedranın müəllimi Ləman Kərimova infeksiyanın yaratdığı fəsadlardan danışıb. Diqqətə çatdırılıb ki, İİV virusu digər viruslardan fərqli olaraq immun sistemini zədələyir. Beləliklə də virus orqanizmi hücum edən xəstəlik və digər faktorların qarşısında çarəsiz, köməksiz buraxır. Vurğulanıb ki, bu xəstəlikdən qorunmaq üçün əhali maariflənDirilməli, gənclər sağlam həyat tərzi keçirməli, zərərli vərdişlərdən uzaq olmalıdır. İİV–lə mübarizədə qalibiyyət yalnız yeni yoluxma hallarının qarşısının alınması və antiretrovirus müalicəsinə əlçatanlığın genişləndirilməsi yolu ilə mümkündür.

Tibbi profilaktika ixtisası üzrə VI kurs tələbəsi Gülnar Əhmədova slayd vasitəsilə virusun yayılma səbəbləri haqqında məlumat verib. O, qeyd edib ki, İİV infeksiyası xəstəxanada müxtəlif yollarla - qan köçürülməsi, cərrahi alətlər və digər tibbi vasitələrlə, orqan transplantasiyası zamanı da parental keçməsi mümkündür. İİV-in xarici mühitdə bir neçə saatda quruduğundan qurumuş qanda da qısa zamanda- yarım saatda məhv olduğu qeyd edilib. Həmçinin vurğulanıb ki, suda bir neçə dəqiqə qaynadaraq ya da 60 dərəcə istilikdə 30 dəqiqə gözlədərək virusu öldürmək mümkündür.

Sonda müəllif universitetdə elmi mühitin inkişafı üçün yaradılan şəraitə görə öz minnətdarlığını ifadə edib.

**Etibar Dərbəndəliyev**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

## "ƏCZAÇILIQ TƏLƏBƏLƏRİ ÜÇÜN İNGİLİS DİLİ" ("ENGLISH FOR PHARMACY STUDENTS" ) DƏRS VƏSAİTİNİN TƏQDİMATI

Naxçıvan Dövlət Universitetinin Elmi Kitabxanasında "İngilis dili və metodika" kafedrasının müəllimi Sərcan Sadiqovanın "Əczaçılıq tələbələri üçün ingilis dili" ("English for pharmacy students") adlı dərs vəsaitinin təqdimatı keçirilib. Yığıncaqda universitetin elmi katibi, riyaziyyat üzrə fəlsəfə doktoru, dosent Məftun İsmayılov çıxış edərək ilk öncə müəllifi təbrik edib, elmi və pedaqoji fəaliyyətində uğurlar arzulayıb. Bildirilib ki, bu cür kitab təqdimatlarını keçirməkdə məqsəd müəlliflərin yazdığı elmi əsərləri universitetin professor-müəllim heyətinə, tələbələrə təqdim etməkdir. Diqqətə çatdırılıb ki, bu dərs vəsaiti "Əczaçılıq" ixtisasında təhsil alan tələblərin biliklərinin artırılmasında mühüm rol oynayacaq.

Xarici dillər fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent Şirməmməd Qulubəyli əczaçılığın ən böyük elementlərindən bəhs edən "English for pharmacy students" kitabının 65 bölmədən ibarət olduğunu nəzərə çatdırıb. Dərs vəsaitinin mətnlər, lüğətlər, tapşırıqlar və dialoqlar üzərində qurulduğu bildirilib.Tələbələrin bu dərs vəsaitini asan mənimsəməsi üçün müəllifin sadə üsulla fikirlərini qələmə aldığı vurğulanıb. Eyni zamanda diqqətə çatdırılıb ki, dərs vəsaiti əczaçılığa dair geniş şəkildə yazılmış ilk mənbədir.

"İngilis dili və metodika" kafedrasının müdir əvəzi Leyla Zeynalova dərs vəsaitində verilən dialoqların fərqliliyindən, keyfiyyətindən danışıb. Təqdim edilən kitabda əczaçılığın qısa tarixi, dərmanların yan təsirləri, saxta və allerjik dərmanlar, həmçinin bitkilərdən hazırlanan preparatlara və digər maraqlı faktlara nəzər salınıb. Qeyd edilənlər "Əczaçılıq" ixtisasında təhsil alan tələbələrə öz sahələrini daha yaxşı mənimsəmələrində kömək edəcək.




"Əczaçılıq" ixtisası üzrə I kurs tələbəsi Fidan Bəxtiyarova bütün tələbələr adından kitabın müəllifinə öz təşəkkürünü bildirib, tərtib edilmiş kitablardan yararlanmalarının vacibliyindən danışıb.

Sonra kitabla bağlı fikirlər səsləndirilib.

Sonda müəllif muxtar respublikada yaradıcı insanların elmi-pedaqoji fəaliyyəti üçün göstərilən dövlət dəstəyinə görə minnətdarlığını bildirib.

**Telli Əlizadə**
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin əməkdaşı***

# "NİZAMİ İLİ" MƏDƏNİYYƏTƏ VERİLƏN QİYMƏTİN TƏCƏSSÜMÜ KİMİ

Vətənimiz dünyanın mədəniyyət xəzinəsinə öz töhfəsini vermiş ölkələrdəndir. Ədəbiyyatımızda elə nəhəng söz adamları var ki, onlar haqqında fikir söyləmək olduqca şərəfli, eyni zamanda da çətindir. Həqiqətən də, Nizami Gəncəvi yaradıcılığı dibi gövhərlə dolu olan ümmandır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamı ilə Nizami Gəncəvinin 880 illik yubileyi ilə əlaqədar 2021-ci il "Nizami ili" elan olundu. Bunu, Nizami yaradıcılığına, ədəbiyyata, Azərbaycana, ustad şairə verilən dəyərin, ehtiramın, eyni zamanda yüksək dəyərlərə, mədəniyyətə, şeirə, sənətə, onların inkişafına böyük diqqətin təzahürü kimi də qiymətləndirmək mümkündür. Dünya ədəbiyyatının görkəmli nümayəndəsi, dahi Azərbaycan şairi və mütəfəkkiri Nizami Gəncəvi dühası təkcə Azərbaycan ədəbiyyatında deyil, dünya ədəbiyyatında və poeziyasında da əvəzsiz rol oynayıb. Nizami dühası daima dünya şərqşünaslığının diqqət mərkəzində olub və olmaqda davam edir.



Qüdrətli söz və fikir ustadı Nizami Gəncəvinin xalqımızın milli-mənəviyyatının ayrılmaz hissəsinə çevrilmiş möhtəşəm irsi əsrlərdən bu yana Şərqin misilsiz mədəni sərvətlər xəzinəsində özünəməxsus yerini alıb. O, Şərqin zəngin mədəni-mənəvi sərvətləri üzərində ucalaraq bədii söz sənətinin qiymətli incilərini yarada bilib. Azərbaycanda dahi şairin əsərləri dəfələrlə nəşr olunub, ədəbi irsinin öyrənilməsi və tanıdılması sahəsində xeyli iş görülüb, çox sayda tədqiqatlar aparılıb. İlk yaradıcılığa rübai şerlərlə başlayan Nizami dünya ədəbiyyatı tarixində beş poemadan ibarət "Xəmsə"nin müəllifi kimi məşhurdur.

Nizaminin ölməz ədəbi irsi təkcə humanizm, insana məhəbbət, yüksək əxlaq, estetik zövq, tərbiyə, hikmət xəzinəsi olmaqla yanaşı, həm də şanlı tariximizdir, keçmişin qaranlıq guşələrinə işıq salan parlaq məşəldir.

Bədii fikir salnaməsinin nadir şəxsiyyətlərindən olan dahi şairin irsinin öyrənilməsi və tanıdılması sahəsində dövlətimiz hər zaman köklü işlər görüb. Dahi Nizaminin doğulduğu Gəncə şəhərində məqbərəsi, Azərbaycanda və digər ölkələrdə heykəlləri ucaldılıb. Bu gün milli-mənəvi dəyərlərə göstərilən diqqət və qayğı dövlət siyasətinin başlıca prinsiplərindən biridir. Azərbaycan intibahının qızıl səhifələrini yazan Nizami irsinin öyrənilməsi və təbliği, xatirəsinin əbədiləşdirilməsi istiqamətində önəmli addımlar məhz ulu öndər Heydər Əliyev tərəfindən atılıb. Ümummilli lider Heydər Əliyev Azərbaycan mədəniyyətinin, milli-mənəvi dəyərlərimizin təbliğini və inkişafını daima diqqət mərkəzində saxlayıb. Məhz uzaqgörən liderin təşəbbüsü ilə qəbul edilən "Azərbaycanın böyük şairi və mütəfəkkiri Nizami Gəncəvinin irsinin öyrənilməsini, nəşrini və təbliğini daha da yaxşılaşdırmaq tədbirləri haqqında" 1979-cu il 6 yanvar tarixli qərar bu istiqamətdə kompleks vəzifələr irəli sürüb. Hələ Sovetlər dönəmində 1981-ci ildə dahi şairin 840 illik yubiley mərasimi Heydər Əliyevin bilavasitə təşəbbüsü ilə qeyd olundu. Müstəqillik dövründə 2011-ci ildə Nizami Gəncəvinin 870 illiyi dövlət səviyyəsində təşkil edildi.

XXI əsrdə dünyaya bəxş etdiyimiz nadir və nəhəng söz adamını xalqımız hər zaman əziz tutur. 2021-ci ilin "Nizami Gəncəvi ili", 44 günlük Vətən müharibəsində ölkəmizin parlaq zəfər qazanması, düşmən tapdağından azad edilmiş Şuşanın isə Azərbaycanın "Mədəniyyət paytaxtı" elan edilməsi Ali Baş Komandan İlham Əliyevin xalqa müraciətlərində milli-mənəvi dəyərlərimizi daima nəzərdə saxlaması Heydər Əliyev siyasətinin uğurlu davamının göstəricisidir.

**Həsən Əlisoy**
***"İngilis dili və tərcümə" kafedrasının müəllimi***

# 21 FEVRAL-BEYNƏLXALQ ANA DİLİ GÜNÜ

***Dilimiz çox zəngin və ahəngdar dildir, dərin tarixi köklərə malikdir, şəxsən mən öz ana dilimi çox sevir və bu dildə danışmağımla fəxr edirəm.***

**Heydər Əliyev**
***Azərbaycan xalqının ümummilli lideri***

Beynəlxalq Ana Dili günü ilk dəfə UNESCO tərəfindən 17 noyabr 1999-cu ildə dünyada insanların istifadə etdiyi bütün dillərin qorunmasını təşviq etmək təşəbbüsü ilə elan edilib. UNESCO ana dillərini mədəniyyətin, şəxsiyyətlərin, dəyərlərin və biliklərin vacib bir hissəsi hesab edir. Bir dil itirildikdə yalnız sözlər və mənaları itmir, həm də tarixi, mənəvi biliklər daxil olmaqla əsrlər boyu bənzərsiz mədəni biliklərin itirilməsini də əhatə edir. 21 Fevral dünyada dil, çoxdillilik və mədəni müxtəliflik şüurunu təbliğ etmək məqsədi daşıyır. Dünyanın bir çox ölkələrində həmin gün festivallar, tədbirlər keçirilir.

1948-ci ildə Pakistan hökümətində urdu dilinin milli dil elan edilməsi narazılıqlara səbəb olur. Ancaq protesto nəzarətə alınır və polisin atəş açması 4 universitet tələbəsinin ölümü ilə nəticələnir. Tələbələrin ana dili üçün ölümü Beynəlxalq Ana Dili günü kimi qeyd edilir. Beynəlxalq Ana dili günü üçün Avstraliyanın Sidney şəhərində, Asfield parkında möhtəşəm xatirə abidəsi ucaldılmışdır. Burada benqal və ingilis dillərində "we will remember the martyr of 21st February" (21 fevral şəhidlərini həmişə xatırlayacağıq) sözləri yazılmışdır. BMT-nin hesablamalarına görə dünyada danışılan 6000 dildən 43 faizi məhv olma riski altındadır. Hər iki həftədə 1 dil itir. Dünyadakı insanların yüzdə 40-ı ana dilində təhsil ala bilmir.

Dil sadəcə ünsiyyət qurmaqdan daha çox şeydir. Duyğularımızı oyadır, kim olduğumuzu formalaşdırır, mədəni irsin qorunmasında mühüm rol oynayır. Azərbaycan dilinin "Kitabi-Dədə Qorqud" kimi mükəmməl eposu var. Təkcə bu kifayət edir ki, dilimizin tarixi ilə öyünək. İlk dəfə 1956-cı ildə ilk Konstitusiyada "Azərbaycanın dövlət dili Azərbaycan dilidir" maddəsi yazılmışdır.

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Azərbaycan dilini daha da inkişaf etdirmək yolunda geniş üfüqlər açıldı. Müstəqil Azərbaycan Respublikası 1995-ci ildə referendum yolu ilə qəbul edilmiş Konstitusiyasında Azərbaycan dilinin adını bərpa etdi. Azərbaycan Respublikasının Konstitusiyasında 21-ci maddəsində yazılır. "Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir".

Biz çox qürur duyuruq ki, ana dilimiz müstəqil dövlətimizin rəsmi dilidir, bu dünyada hər bir millətə, xalqa nəsib olmur. Çünki dilin dövlət dili statusuna yüksəlməsi millətin öz taleyinə sahibliyinin, dövlət qurmaq və qorumaq qüdrətinin, eyni zamanda, dilinin zənginliyinin sübutudur. Dünyanın onlarla universitetində Azərbaycan dili tədris olunur. ABŞ-ın 6 universitetinin proqramında Azərbaycan dili öyrənilir. Asiya, Avropa və digər qitə ölkələrində də dilimizə maraq artmışdır. Azərbaycan dilinin zəngin lüğət fondu, geniş ifadə imkanları, mükəmməl əlifbası vardır. Ümummilli lider Heydər Əliyevin 18 iyun 2001-ci il tarixli "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" fərmanı Azərbaycan dilinin sərbəst inkişafı və geniş tətbiqi üçün zəmin yaratdı. Ümummilli lider latın qrafikalı əlifbanın tətbiqinin Azərbaycanın siyasi həyatında, yazı mədəniyyəti tarixində mühüm hadisə olduğunu nəzərə alaraq, 2001-ci il avqustun 9-da fərman imzaladı. Həmin fərmanla 1 avqust Azərbaycan əlifbası və Azərbaycan dili günü elan edildi. 2004-cü ildə ölkə Prezidenti İlham Əliyevin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" Sərəncamı dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Dilimiz min illərin növbənöv burulğanlarından üzüağ çıxaraq dövrümüzə gəlib çatmış ən böyük sərvətimizdir. Hər bir dilin praktik işlənməsi üçün münbit şəraitlə yanaşı, onun yad təsirlərə qarşı müqavimətli olması da böyük rol oynayır. Bu müqavimətə tab gətirməyən bir dil assimilyasiya olunur, gələcək nəsillərə gəlib çatmır. Azərbaycan dilinə qayğı göstərməkdə ziyalıların, yazıçıların, dilçilərin daşıdıqları məsuliyyət daha böyükdür. Ona görə ki, cəmiyyətin bu təbəqəsi təkcə dildən istifadə etmir, həm də, onun tətbiqi işinin təkmilləşdirilməsi, inkişaf etməsinə qayğı göstərir. H.Əliyev "İndi biz dilimizdə sərbəst danışırıq və hər bir mürəkkəb fikri ifadə etməyə qadirik. Bu böyük nailiyyətdir. Bu iqtisadi və başqa nailiyyətlərin hamısından üstün bir nailiyyətdir ki, bizim bir millət kimi özümüzə məxsus zəngin dilimiz var". Orta əsrlər çağında Azərbaycan dilinin təbliğində və möhkəmlənməsində də misilsiz xidmətləri olan Şah İsmayıl Xətai belə demişdir: "Ey türk oğulları, Vətənin bir ovuc torpağını dünyanın var-dövlətinə, dilimizin bir sözünü ləl-cəvahirata dəyişməyin".



Naxçıvan Muxtar Respublikası Ali Məclisin Sədri yanında "Elmin inkişaf fondu" nun yaradılması, dilimizlə bağlı tədbirlər, beynəlxalq simpoziumlar, konqreslərin keçirilməsi, kütləvi nəşrlərin, monoqrafiya və ensiklopediyaların yazılması dilimizə olan qayğının göstəricisidir. Dövlət atributlarından biri olan dilimizə hörmətlə yanaşmalı, babalarımızın mirası olan milli sərvətimizi göz bəbəyi kimi qorumalı, qayğı ilə yanaşmalıyıq.

**Türkan İsmayıllı**
***"İngilis dili və metodika" kafedrasının müəllimi***

# RƏQƏMSAL VƏTƏNDAŞLIQDA KİBERTƏHLÜKƏSİZLİK VƏ İNTERNETDƏN TƏHLÜKƏSİZ İSTİFADƏ

Rəqəmli texnologiyalar gündəlik həyatımızın bir hissəsinə çevrilib. Ona görə də internetdə təhlükəsizliyin təmini müasir dövrün ən aktual tələblərindən biridir. Təhlükəsiz və pozitiv internet yalnız mühafizə proqramları demək deyil. Bu, ilk növbədə pozitiv kontentin mövcudluğu, adi istifadəçilərin təhlükəsizliyin əsasları və internetdə davranış qaydalarına dair ictimai konsensus barəsində məlumatlı olması deməkdir. Bu, həm də adi istifadəçilərin internet təhlükəsizlik səviyyəsinin yüksəldilməsi üçün nəzərdə tutulmuş ictimai-dövlət tərəfdaşlığıdır.

Son zamanlar texnologiyanın inkişafı və şaxələnməsi bir tərəfdən insanların işlərini rahatlaşdırsa da, digər tərəfdən təhlükəsizlik baxımından şirkətlərin bu sürətli inkişafın və şaxələnmənin qarşısında dayanacaq güclərinin və maraqlarının olmaması bir sıra problemlər ortaya çıxarır.

İnformasiya-kommunikasiya texnologiyaları (İKT) çox sürətlə inkişaf edərək, həyatımızın ayrılmaz bir hissəsinə çevrilmişdir. İKT-nin ən perspektivli sahələrindən biri olan İnternet insanların bir-biri ilə daha tez və asan əlaqə yaratdığı, eyni zamanda, informasiya mübadiləsi apardığı bir məkandır.

Cəmiyyətin qorunmağa daha çox ehtiyacı olan təbəqəsinin – uşaq və yeniyetmələrin İnternetdən geniş istifadəsi onların informasiya təhlükəsizliyi ilə bağlı bir çox problemlərin yaranmasına səbəb olmuşdur.

Qloballaşan dünyada informasiya-kommunikasiya texnologiyalarının (İKT) yeniləşməsi sürətlə davam edir. Bu yeniləşmənin əhəmiyyətinə böyük önəm verən Azərbaycan bu sahəyə xüsusi diqqət yetirir.

Muxtar respublikada fiber optik kabel xətləri üzərində qurulan iri tutumlu telekommunikasiya şəbəkələri elektron xidmətlərin inkişaf etdirilməsinə, o cümlədən elektron hökumət, bank, maliyyə, vergi, təhsil, səhiyyə və digər sahələr üzrə elektron xidmətlərin inkişafına təkan verib. Naxçıvanın beynəlxalq transavrasiya fiber optik magistrallarına 2, qlobal internet sisteminə 4 tərəfli çıxışı vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2011-ci il 15 iyul tarixli Fərmanına əsasən "Elektron hökumət" portalı yaradılıb. "Bir pəncərə" prinsipi əsasında fəaliyyət göstərən 33 dövlət təşkilatı tərəfindən hazırda 291 elektron xidmət istifadəçilərə təqdim olunur. Bundan əlavə, 150-yə yaxın dövlət və ictimai təşkilata elektron poçt ünvanları və domen adları verilib, həmin təşkilatların internet səhifələri hazırlanaraq qlobal şəbəkədə yerləşdirilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 20 iyun 2014-cü il Naxçıvan Muxtar Respublikasının təhsil müəssisələrində elektron təhsilin təşkili ilə bağlı əlavə tədbirlər haqqında Sərəncamından irəli gələn vəzifələrin icrası istiqamətində görülən işlərin nəticəsidir ki, hazırda muxtar respublika üzrə 236 elm və təhsil müəssisəsi, 17 muzey İnteraktiv Təhsil Sisteminə qoşulub. Məhdud Fiziki İmkanlılar üçün Naxçıvan Regional İnformasiya Mərkəzində yaradılan Distant Təhsil Mərkəzində fiziki məhdud imkanlı uşaqların sayı 24, audio kitabxanadan mütəmadi istifadə edənlərin sayı isə 375 nəfərdir. Həmçinin, Naxçıvan Dövlət Universitetində Distant Təhsil Mərkəzi istifadəyə verilib.

"2008-2012-ci illərdə Azərbaycan Respublikasında təhsil sisteminin informasiyalaşdırılması üzrə Dövlət Proqramı" çərçivəsində yaradılan Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin dəstəyi ilə Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən təhsil müəssisələrində filtrasiya sistemi tətbiq edilmiş, cəmiyyətdə informasiya təhlükəsizliyi ilə bağlı maarifləndirici tədbirlər və bəzi məktəblərdə treninqlər keçirilmişdir.



Ümumilikdə ziyanlı informasiyanın və bilavasitə azyaşlı İnternet istifadəçisinə yönəlmiş təhlükələrin qarşısının alınması məqsədilə müxtəlif texnoloji üsullardan, mexanizmlərdən və proqram vasitələrindən istifadə olunur. Ziyanlı informasiya ilə mübarizə aparmaq üçün kontent filtrasiyası tətbiq edilir. Bu metod həm şirkətlər, həm də ailələr tərəfindən istifadə edilir.

Microsoft şirkəti Windows 7 əməliyyat sistemindən başlayaraq, valideynlərə uşaqların İnternetdə zərərli saytlardan müdafiəsinə və onlara nəzarət saxlamağa imkan verən "Windows Family Safety" adlı proqram təminatı hazırlamışdır. Bu proqram vasitəsilə valideynlər İnternetdən istifadə zamanı bir sıra saytlara qadağalar qoya və məhdudiyyətləri tənzimləyə bilirlər. Windows ailəsinə məxsus olan Windows 10-dan əvvəlki əməliyyat sistemlərində təhlükəsizliklə bağlı məsələlər əlavə yazılan proqram təminatı vasitəsilə həyata keçirilirdi. Windows 10 əməliyyat sistemində isə bu problem mövcud deyil və sistemin üzərinə inteqrasiya olunmuş "Windows Hello" kimi proqramlardan istifadə olunur. Sürətli informasiya mübadiləsi və eyni zamanda, şəbəkəyə tez-tez daxil olma kompüterdə virusların aktivləşməsinə səbəb olur.

Viruslardan müdafiə ilə yanaşı, həm də filtrləməyə böyük ehtiyac yaranır. McAfee, Norton, Avg kimi məşhur antivirus proqramları, həm də filtrləmə funksiyalarını yerinə yetirir.

İnternetdə uşaqlar real həyatda olduğundan daha müdafiəsizdirlər. Valideynlərin üzərinə düşən ilk vəzifə özlərinin kompüter savadlılığı və İnternetin resurslarından istifadə bacarıqlarını artırmaqdır. Uşaqları İnternetdəki təhlükələrdən qorumaq üçün onların istifadə etdikləri kompüterlərə "ailə nəzarət sistemləri", antivirus proqramları yazılmalı, uşaqların müəyyən kontentlərə çıxışı məhdudlaşdırılmalıdır.

Qeyd edək ki, 9 fevral 2021-ci il Təhlükəsiz İnternet Günü kimi qeyd olunur. 2004-cü ildən başlayaraq hər il fevral ayının ikinci həftəsinin çərşənbə axşamında dünyanın 70-dən çox ölkəsində qeyd olunan bu gündə "Insafe" Təhlükəsiz İnternet Mərkəzləri Şəbəkəsi tərəfindən təşkil edilən tədbirin məqsədi uşaq və yeniyetmələrin internetdən istifadəsini qlobal səviyyədə dəstəkləmək və diqqəti onların onlayn təhlükəsizliyinin təmini məsələlərinə yönəltməkdir. Həmin gün bütün maraqlı tərəflər – uşaqlar, gənclər, valideynlər, müəllimlər, siyasətçilər və s. bir araya gələrək uşaqların internetdə təhlükəsizliyinin təmin edilməsi haqqında geniş fikir mübadiləsi aparır, problemlərin həlli üçün çalışırlar.

**Hüseyn Əsgərli**
***İnformasiya Kommunikasiya Texnologiyaları və Elektron təhsil şöbəsinin müdiri***

# ZƏRRƏCİKLƏRİN NAĞILI

## FƏLSƏFİ ESSE

Dünya yoxdu . Heç nə vardı. Səbəblər səbəbi Böyük Yaradan heç nədən zərrəcikləri yaratdı. Onlar kainat oldular. Hər zərrəçik özü –özündəydi , başqa zərrəcikləri fərq etmirdi. Hər zərrəcik özü üçün mövcuddu. Nə başqasına dəyib dolaşır, nə də ona dəyib dolaşan olurdu. Nə özləri bir şey yarada bilir, nə də məhv olurdular. Heç bir hadisə baş vermirdi. Nə görürdülər, nə də başqaslarına görünürdülər . Heç nə eşitmirdilər. Səs-səmir belə yox idi. Nə birləşən vardı, nə də ayrılan. İşıq- qaranlıq, isti-soyuq, pis-yaxşı, xeyir-şər bilinmirdi. Nə məhəbbət, nə də nifrət var idi. Bütün kainatda yeknəsəklik və sakitlik hökm sürürdü. Kainat beləcə mövcudluğunu davam etdirirdi. Bu minvalla sürən həyat az oldu, çox oldu bilinmədi.

Bütün kainatı dolaşan zərrəciklər nə etdilər bilinmədi, duyulmadı, nə də eşidilmədi. Nəhayət onlar bir şey olsalar da, heç nəyə yaramadıqlarını sezdilər. Özlərində bir məna tapa bilmədilər. Bu mənasızlıq onları bezdirdi. Əbədi və sakit həyatları olsa da, asılı olmasalar da, mənasızlıq onları möhkəm darıxdırır belə yeknəsəq həyatdan bezdirirdi. Nə edəcəklərini bilmirdilər. Öz dərdlərinə özlərindən əlac olmayacağını bilib Yaradanlarına üz tutdular. Dərdlərinə əlac istədilər. Böyük Yaradan rəhm edəndi, mehribandı, hər şeyi biləndi, diləkləri yerinə yetirəndi. Bu səbəbdən zərrəciklərə diləklərinin yerinə yetiriləcəyi tədqirdə, onların hal və həyatında nə kimi dəyişikliklər olacağını anlatdı:

- Onu bilin ki, diləkləriniz yerinə yetdikdə ilk növbədə əbədi, sakit və azad həyatınızı itirəcəksiniz. Mən sizlərdən hər birinin mövcudluğunu özünə bərabər olub, özünün əksi olanla birləşdirər, bu isə sizə zidiyyət və mübarizələrlə dolu bir eşq qüvvəsi verər. Bu qüvvə hər bir zərrəciyi özü-özündəlikdən çıxarar, həm özü həm də başqası üçün edər. Zidiyyətlərlə və mübarizələrlə dolu həyatınızda bir-birinizlə əlaqələnər, birləşər, ayrılar, özü başqasına çevrilməklə özünüzə oxşamayan yeni varlıqlar yaradar, bunu davamlı olaraq yenilik istiqamətində təkrarlar və arzuladığınız məna və hadisələrlə dolu bir həyat yaşarsınız. Eşq qüvvəsi ilə hərəkətə gələn zidiyyətli və mübarizəli həyatınızda mənalı hadisələr, yeni yaranışlarla yanaşı, bunlara əks olan keyfiyyətlərə malik olanlar da olacaqdır. Müsbətlə yanaşı mənfi, cəzbetmə ilə yanaşı dəfetmə, işıqla yanaşı qaranlıq, istiylə yanaşı soyuq, xeyirlə yanaşı şər, məhəbbətlə yanaşı nifrət, sevinclə yanaşı kədər, həzlə yanaşı iztirab, gozəlliklə yanaşı eybəcərlik, həyatla yanaşı ölüm və s. bu kimi sonsuz əksiliklər nəsibiniz olacaqdır. İndi özünüz baxın hansını istəyirsinizsə seçin.

Əvvəlki yeknəsəq həyatlarından bezən zərrəciklər əlaqələnmək, birləşmək, yeniliklər və gözəlliklər yaratmaq, hadisələrlə dolu mənalı həyat yaşamaq xatirinə məşəqqət və əzabı da qəbul edərək dilədikləri həyatın onlara verilməsini istədilər.

Böyük Yaradan hər bir zərrəciyin təbiətini özünə bərabər olub özünün əksi olanla birləşdirməklə, onların təbiətinə onları davamlı həkətə gətirən, əlaqələndirən, birləşdirən, ayıran, yeni yaranışlar əmələ gəlməsinə səbəb olan eşq qüvvəsi daxil etdi. Zərrəciklərin təbiətinə daxil olan müsbət və mənfi yüklü, cəzb və dəf edə bilən bu sehrli eşq qüvvəsinin qüdrətindən bütün kainat hərəkətə gəldi. Zərrəciklər sanki canlandılar. Həm ozlərini həm də başqa zərrəcikləri fərq etdilər. Əlaqələndilər, birləşdilər, vəhdətləndilər. Təbiətlərində bir-birinə əks olan qüvvələr onları rahat buraxmır, hərəkət və fəaliyyətlərini davamlı və zəruri edirdi. Bu fəaliyyət zərrəciklərin özünün özü kimi qalmasına imkan vermir, onu dəyişdirir, başqalaşdırır, yeni-yeni yaranışların yaranmasına səbəb olurdu.

Zərrəciklərin dəyişməyə başlaması anından zaman birləşib, vəhdətlənib mövcudluq olub yer tutmasından isə məkan yarandı. Cəzbetmə qüvvəsinin təsirindən ayrı-ayrı vəhdətlər halında birləşən zərrəciklərdən səma cismləri, ulduzlar, səyyarələr meydana gəldi.

Dəfetmə qüvvəsi isə yaranışlar arasında məsafə saxlanmasını təmin etməklə, birləşmənin əksi olan prosesləri tənzimləyirdi. Bu sehrli qüvvə zərrəciklərdən yarananların fəaliyyət qanunauyğunluğunu saxlayır, onların yaşayış yolunu müəyyən edirdi. Zərrəciklərin əlaqələnmə, birləşmə və vəhdətlənmə sevincləri yüksək hərarət və parlaq işıqla şərtlənir və bütün kainatı nurlandırırdı. Bu birləşmə və ayrılmalar köhnələr üzərində daim yeni yaranışlar meydana gətirir dünyanı müxtəlifləndirirdi. Zərrəciklərin bu fəallığı işığı, hərarəti, xeyiri, gözəllikləri, məhəbbəti yaratdığı və həyatı mənalandırdığı kimi, qaranlığı, soyuğu, şəri, nifrəti , ölümü də doğururdu.

Əks qüvvələrin mübarizəsi və toqquşması tufanlara, fəlakətlərə, əzab və iztirablara səbəb olurdu. Bəzən bu sehrli qüvvələr elə çuğlaşırdı ki, onun xeyri ilə şərini ayırmaq olmurdu. Özündə mənfi -müsbət, xeyir və şər, məhəbbət və nifrət və sair bu kimi əksilikləri daşıyan zərrəciklər bir-birləri ilə qarşılıqlı əlaqə şəraitində gah alovlu məhəbbətlə vəhdətlənir, gah da soyuq bir nifrətlə ayrılır. Hər iki halda başqalanıb nə isə yeni bir şey yaradırdılar. Zərrəciklər birləşmə və ayrılma məqamlarında sanki şıltaqlıq edir, gah xeyirlənib gözəlliklər yaradır, gah da şərlənib gözəllikləri xarabalıqlara çevirirdilər.

Zərrəciklər özlərinin əbədi və sakit həyatları olümlü və iztirablı olsa da, hadisələrlə, yaranışlarla, məna və gözəlliklərlə dolu bir həyata dəyişməkdə səhv etməmişdilər. Zərrəciklərin yaratdığı bir-birinin bənzəri olmayan sonsuz müxtəlif mikro və makro yaranışların hər birinin öz mənası, öz məqsədi var idi. Onlar sonsuz sayda parlaq ulduzlardan ibarət kəhkəşanlar, səyyarə topluları yaratmışlar, onları rəngarəng cisim və hadisələrlə doldurub mənalandırmışlar. Daha fəal yaranışlar olan canlı aləmi, bitki və heyvanları yaratmışlar. Sözün qısası, onlara yaradıcı gücü verən ilahi qüvvənin köməyi ilə zərrəciklər möhkəm intizam və zəruri qanunauyğunluqla şərtlənən rəngarəng hadisələrlə və yeniliklərlə dolu, əsrarəngiz gözəlliyə, axar-baxara malik, min bir rəngə çalan, mövcud olan hər bir şeyin ayrıca mənası və məqsədi olan bütöv bir aləm yaratmışdılar.

Bütün bunlar çox gözəl idi. Zərəciklər bezmir və daha darıxmırdılar. Amma yenə də nəyinsə catışmadığını hiss edirdilər. Nə isə elə bil ki, bir boşluq var idi. Bu zərrəciklərin onlara verilmiş imkanla yaratdıqlarının məna və gözəlliklərinin duyulması, dərk olunması və dəyərləndirilməsi istəyi ilə bağlı idi. Onlar hər şeyin ölçüsü ola biləcək, öz ölçüsü ilə hər şeyi mənalandıra və dəyərləndirə biləcək bir yaranışa ehtiyac duyurdular. Zərrəciklər öz fəaliyyətlərində nə imkansa onu etmişdilər. Bu istəkləri isə onların imkanları daxilində deyildi. Əlac yenə də onları yaradan, onlara yaradıcı güc verən böyük və hər şeyə qadir Yaradana üz tutmaqda idi. Belə də etdilər. Böyük Yaradan onların bu dəfəki istəyini dinlədi və bu istəklərinin yerinə yetiriləcəyi tədqirdə həyatlarında nələr baş verə biləcəyini onlara anlatdı:

- Bu istəyinizi də yerinə yetirməm mümkündür. Bilin ki, bu dəfəki istəyiniz çox böyük-



dür. Lakin bunu həm də ona görə yerinə yetirmək istəyirəm ki, mən də qüdrətimin və yaratdığım bu sonsuz aləmin məna və gözəlliklərini duyan, anlayan, dərk edib dəyərləndirə bilən yaranışların olmasını istərəm. Lakin bu keyfiyyətə malik yaranışa verəcəyim güc və qüdrətin böyüklüyünün həm də nə kimi zərərlər verə biləcəyini bildiyim üçün indiyədək yaratmamışam. İndi sizin istəyinizlə onu yaradacağam. Bilin ki, bu yaranış böyük gücə, bacarığa və qabiliyyətə sahib olacaq. Bu yaranışa verəcəyim güc ən uca nemət olan ağıldır, düşüncədir. Bunu sizlərdən mütəşəkkil olan canlı yaranışlardan birinə verəcəm. Bu keyfiyyətə malik olan yaranış aləmi dərk etikcə biliklər əldə edib daha da qüvvətlənəcək, öz ağlının işığıyla öz yaşam yolunu müəyyən edəcək və hərəkətlərində müxtar olacaqdır. Yaradılan aləmin məna və gözəlliklərini dərk edib qiymətləndirməklə yanaşı, özləri də məna və gözəlliklər yaradacaq. Onlara verilmiş ağıl və düşüncənin sayəsində əldə etdikləri mövqe və qüdrət sizlər üzərində yüksəlib sizə sahib olmalarına imkan verəcək. Onlar öz qüdrətləriylə dünyada öz nizamlarını yaratmağa başlayacaq və öz nizamlarını sizin şəkilləndirdiyiniz təbii nizama qarşı qoyacaqlar.

Lakin ağıl qüvvəsi də özünə bərabər olub özünün əksi olanla birgə olacaq ki, bu da hislərə dayanan nəfs qüvvəsi olacaq. Ağıl və düşüncəyə sahib canlının məqsədi istiqamətində fəaliyyəti nəfs qüvvəsi ilə daimi mübarizə şəraitində baş tutacaq. Nəfs qüvvəsi ağla əks olub onu öz istəklərinə tabe etməyə və ağlı öz məqsədlərindən kənarlaşdırmağa çalışacaq. Bu isə böyük fəlakətlərə, qırğınlara, ağrı-acı və iztirablara səbəb ola bilər. Əgər nəfs ağlı tamamilə özünə tabe edə bilsə, dünyanın məna və gözəlliklərinin sonu gəlmiş olar. Yox əgər ağıl qüvvəsinə sahib olan öz istəklərini ağılla nizamlarsa, onda nəfsin onlara gücü çatmaz. Onda dünya siz işdədiyiniz kimi şəkillənər, həyatınıza məna və gözəlliklər qatılmış olar. İstədiyinizi secməkdə sərbəstsiniz.

Zərrəciklərdən yaranan məna və gözəlliklərin duyulması, dərk olunması və dəyərləndirilməsi zərrəciklər üçün qarşısıalınmaz istək olduğundan bu istəklərinin yerinə yetirilməsini israr etdilər. Böyük Yaradan onun yanında ən uca nemət olan ağlı canlı yaranışlardan birinə verdi və onu insan adlandırdı. Ona keyfiyyətinə uyğun forma verdi və qarşısına qoyulan məqsədi yerinə yetirməsi üçün hər cür imkanla təmin etdi.

İnsan ona verilən ağıl və düşüncənin sayəsində tez bir zamanda seçildi və ucaldı. Öz ölçüsü ilə hər şeyin ölçüsünə çevrildi. Yaradılan məna və gözəllikləri dərk edib dəyərləndirməklə yanaşı, özü də mənalar və gözəlliklər yaratmağa başladı. Çox mənalar, mahiyyətlər, qanun və qanunauyğunluqlar aşkar etdi. Çox sirrlər açdı. Bütün bunlar onu yaranışlar üzərində yüksəltdi, ən ali və mükəmməl yaranışa çevirdi. Ona verilən ağıl və düşüncənin qüdrəti ilə elə qüdrətli vasitələr yaratdı ki, aya, səyyarələrə belə yol aça bildi.

İnsan çox, həm də lap cox bilik və bacarıqlar əldə etdi. Lakin nəfsi ilə bacara bilmədi. Nəfsini cilovlayıb ağlına tabe edə bilmədi. Bu da dünyaya fəlakət gətirdi, insanlığa böyük zərbə vurdu. Nəfslərindən döğan xislətləri üzündən insanlar zaman–zaman qanlı müharibələr törədir, dağıntılara və faciələrə yol açır, günahsız insanların qanına bais olurdular. Nəfsin istəkləri ucbatından yaşayışlarını təmin edən təbiətlə də sərt rəftar edir, yaşayışları üçün zəruri olanları belə, nəzərə almadan amansızlıqla məhv edirdilər. Oturduqları budağı kəsdiklərini və budaqla birlikdə özlərinin də düşüb məhv olcağını anlasalar da belə, nəfslərinin şiddətinə qalib gələ bilmirdilər. İnsanların nəfs istəkləri onlara yaranış məqsədlərini unutdururdu. Ağıl daim insana yaranış məqsədini anlatsa da, nəfs insanı əsl məqsədindən ayırır, onu şirnikdirərək öz istəklərinə tabe etdirməyə çalışırdı.

Ağıl bilirdi ki, nəfsdən üstün və qüdrətlidir. Ağıl bilik və bacarıq sahibi idi. Mənanı dərk etməklə yanaşı, həm də məna yarada bilirdi. İnsan ölsə də yaratdığı mənalar nəsldən-nəslə keçərək yaşayır, yeni-yeni mənalar doğuraraq ağılları daha da qüdrətləndirirdi. Nəfsə qalib gəlmək və ağlın hökmranlığını elan etmək yalnız muxtar olan insanın istək və iradəsinə bağli idi.

Nağılımızın əvvəlində dediyimiz dünya yoxdu, heç nə vardı sözünün əksinə olaraq deyə bilərik ki, biri vardı, hər şey vardı. Yox da var olacaq. Hər şey olacaq və öz yaranış məqsədi istiqamətində, öz qaydası ilə fəaliyyətdə olacaq. Təkcə uca nemət olan ağla sahib muxtar insanlardan başqa qayda-qanunu, təbii nizamı pozan olmayacaq.

-Ey bəşəriyyət, sənə bəxş edilmiş uca nemət olan ağla güvən, onu nəfsin şərindən qoru, onda qələbə səninlə olacaq.

**Yusif Hüseynov**
***Beynəlxalq münasibətlər və hüquq fakültəsinin dekanı, fəlsəfə üzrə fəlsəfə doktoru, dosent***

# DƏMİR YUMRUQDA BİRLƏŞƏN AZƏRBAYCAN GƏNCLİYİ

Hər bir xalqın özünün müəyyən inkişaf tarixi vardır. Lakin sadəcə bir tarixə sahib olmaq kifayət deyil, bunu səciyyələndirən əsas məqam odur ki, cəmiyyətdəki fərdlər və sosial qruplar milli varlığı gələcəyə daşımaq-onu “əbədi” etmək üçün “ortaq iradəyə” sahib olmalıdırlar. Bu ortaq iradə olmasa xalqların tarixi bir muzeyi xatırladacaq və tarixin axarında unudulacaqdır. Bu baxımdan, cəmiyyəti sabaha aparacaq gənclərin yetişdirilməsi, onların tərbiyə olunması, təhsil alması və cəmiyyətə inteqrasiya olunması əsas prinsiplər sayılır. Gəncliyə dövlət qayğısı sabaha və uğurlara hesablanan bir siyasətdir, bu siyasət sağlam və intellektual nəslin formalaşmasına xidmət edir. Bütün bunlar isə dövlətin gəncliyinin sabahına daha böyük inamla baxmağa əsas verir.

“Bizim bu günkü gəncliyimiz sağlam düşüncəli gənclikdir, vətənpərvər gənclikdir, xalqını, millətini sevən gənclikdir… Gənclərimiz mükəmməl təhsil almalı, həyatı dərindən öyrənməli, dünyada gedən prosesləri bilməlidir. Lazımi fəaliyyət göstərib öz xalqına, dövlətinə xidmət etməlidir.” deyən Ümummilli lider Heydər Əliyev gənclərlə bağlı məsələləri həmişə öz siyasətinin prioritet istiqamətlərindən biri hesab edib. Ulu öndər ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə sağlam düşüncəli gənc nəslin yetişdirilməsini, gənclərin ölkənin sosial-iqtisadi, ictimai-siyasi və mədəni həyatında iştirakının təmin edilməsini diqqət mərkəzində saxlayıb. Onun təşəbbüsü ilə hələ Sovetlər Birliyi dövründə Azərbaycan gəncliyinin inkişafı istiqamətində ardıcıl tədbirlər həyata keçirilmiş, milli dəyərlərə və tarixi-mədəni irsə bağlı gənc nəslin formalaşdırılmasının əsası qoyulmuşdur. O dövrdə gənclərin təhsili sahəsində həyata keçirilən tədbirlər, onların ixtisaslı kadr kimi yetişdirilməsi, xüsusilə milli hərbçi kadrların hazırlanması ölkəmiz müstəqillik qazandıqdan sonra milli kadr təminatında əsas amil olmuşdur.

Ümummilli liderimizin 1997-ci il 2 fevral tarixində imzaladığı fərmana əsasən həmin



tarix “Azərbaycan gəncləri günü” elan edilmişdir. Sonrakı illərdə gənclərə göstərilən qayğının bariz nümunəsi olan bir sıra hüquqi aktlar – “Bədən tərbiyəsi və idman haqqında”, “Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında”, “Gənc istedadlar üçün xüsusi təqaüdlərin təsis edilməsi haqqında”, “Dövlət gənclər siyasəti haqqında” qanunlar qəbul edilmişdir.

Gənclərə göstərilən bu qayğı dövrün tələblərinə uyğun olaraq Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən də məqsədyönlü şəkildə davam və inkişaf etdirilir. Dövlət başçısı gəncləri aparıcı qüvvəyə çevirmək və onların sosial-iqtisadi problemlərinin həllini təmin etmək məqsədilə 2005-2009-cu illəri əhatə edən “Azərbaycan gəncliyi” Dövlət Proqramını təsdiq edib. Proqrama uyğun olaraq gənclərin sosial müdafiəsi, məşğulluğunun təmin edilməsi, yaradıcılıq axtarışlarının stimullaşdırılması, milli-mənəvi dəyərlərin qorunması, hərbi vətənpərvərlik hissinin gücləndirilməsi, sağlam həyat tərzinin təbliğ edilməsi istiqamətində çox mühüm tədbirlər həyata keçirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən 2007-ci ilin “Gənclər ili” elan edilməsi, “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı”nın təsdiq edilməsi, “Azərbaycan gəncliyi 2011-2015-ci illərdə Dövlət Proqramı” haqqında Sərəncamın imzalanması Azərbaycanda gəncliyə diqqət və qayğının davamlı bir siyasət olduğunu tam aydınlığı ilə ortaya qoydu. “2007-2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə Dövlət Proqramı” çərçivəsində 5000 gəncin dünyanın nüfuzlu ali məktəblərində təhsil almağa göndərilməsi də gənclərin təhsilinin artırılmasına xidmət edən addımlardandır. “2015-2025-ci illərdə Azərbaycan gənclərinin İnkişaf Strategiyası”nı xüsusi olaraq qeyd etmək istəyirəm ki, bu sənəd gənclər üçün böyük perspektivlər müəyyən edir. Strategiyanın mərkəzində Azərbaycan gənclərinin maraqları yer alır. Təbii ki, bütün bunlarda məqsəd gənclərin hərtərəfli inkişafını, cəmiyyətin həyatında fəal iştirakını təmin etməkdir. Gəncliyin qarşısında bu gün üç əsas vəzifə – “Peşəkarlığı və intellektual səviyyəni artırmaq, torpağa, yurda bağlılıq və ən nəhayət yüksək, insani keyfiyyətlərin formalaşdırılması” olduğunu deyən Prezident İlham Əliyev, gənclərin üzərinə böyük və məsuliyyətli vəzifə qoymuşdur.

Gənclərimiz bu gün ölkəmizin bütün idarəetmə strukturlarında, qurumlarda, vətəndaş cəmiyyəti institutlarında layiqincə təmsil olunur. Azərbaycan gəncliyi bu mövqedə öz məsuliyyətini dərindən dərk edir və üzərinə düşən işin öhdəsindən layiqincə gəlməyə çalışır. Çünki Azərbaycanın gələcək uğurları bu gün gəncliyin sahibləndiyi bilik, bacarıq və mənəvi tərbiyədən asılıdır.

2020-ci ilin 27 sentyabrında başlanan və 10 noyabr tarixinə kimi davam edən Vətən müharibəsində gənclərimiz istər ön cəbhədə, istərsə də arxa cəbhədə fəal iştirak etmişdir. Vətən müharibəsi Azərbaycan gəncinin öz ölkəsinə, öz xalqına necə ülvi hisslərlə bağlı olduğunu bir daha göstərdi. “Mən çox şadam ki, son illər ərzində Azərbaycanda vətənpərvər, güclü, milli ruhda tərbiyə almış gənc nəsil yetişib. Bu illər ərzində yetişən insanlar bu torpaqları azad etdilər. Bütün nəsillərdən olan vətəndaşlarımızın bu Qələbədə böyük zəhməti var, payı var. Ancaq onu da bildirməliyəm ki, əsas yükü, əsas vəzifəni gənc nəsil yerinə yetirdi. 2003-cü ildə 10 yaşı, 15 yaşı olanların bu gün 27-32 yaşı var. Onların məhz vətənpərvərlik ruhunda tərbiyə alması, düşmənə nifrət hissi bizi Qələbəyə apardı və Azərbaycan tarixi ədaləti bərpa etdi” Cənab Prezident İlham Əliyev 2021-ci ilin yanvar ayında Şuşaya səfəri zamanı Cıdır düzündə səsləndirdiyi bu fikirlər gənclərin dövlətin ictimai-siyasi həyatında necə bir yer tutduğunu bir daha göstərmişdir.

Bu gün biz gənclər ümummilli lider Heydər Əliyevin ideyalarını öz fəaliyyətimizdə daim rəhbər tutmalı, Azərbaycan gəncliyinin lideri olan möhtərəm prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müstəqilliyinin əbədi yaşaması üçün dəmir yumruqda birləşməliyik.

Bizlər bu gün, Azərbaycan gənci olmağımızla fəxr edib, qürur duyuruq. Çünki biz qalib ölkənin gəncləriyik!

**Əziz Qasımov**
***“Hüquq fənləri” kafedrasının müəllimi, Tələbə Gənclər Təşkilatının sədri***

# YARATDIĞI ESKİZLƏRLƏ İNSANLARA RAHATLIQ, HÜZUR BƏXŞ EDƏN GƏNC MEMAR

“Ümummilli liderimiz Heydər Əliyev “Azərbaycan gəncləri Azərbaycanın gələcəyidir” – deyib. Bəli, Ulu öndər hər zaman gəncliyin gücünə arxalanıb və gənclərə daim sahib çıxıb. Elə buna görədir ki, o, gənclərə həmişə böyük diqqət və qayğı ilə yanaşıb, onların problemlərinin həlli istiqamətində həyata keçirilən tədbirlərə xüsusi önəm verib, bu siyasəti müasir müstəqil Azərbaycan dövlətinin fəaliyyətinin ən mühüm istiqamətlərindən biri kimi dəyərləndirib. Gənclərin sosial, iqtisadi və s. problemlərinin həllinə yönələn, onların öz qabiliyyətlərinin inkişaf etdirmələrinə kömək edən qanunlar, fərman, sərəncam və dövlət proqramları gənc nəslin mütəşəkkil qüvvə kimi formalaşmasına, onların mənəvi-ideoloji cəhətdən tam yetkinləşməsinə, sosial problemlərinin həllinə, faydalı məşğulluğunun təmin olunmasına son dərəcə müsbət təsir göstərib.

Ulu Öndərin gəncliyə və gənclərə etimadı artıq öz təsdiqini tapmaqdadır. Bu gün ölkəmizdə gənclər siyasəti mahiyyət və keyfiyyətcə yeni mərhələsini yaşayır. Prezident İlham Əliyev Ulu Öndərin gənclər siyasətinə sadiqliyini öz qərarları ilə təsdiq edir. Tam əminliklə demək olar ki, ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması, milli adət-ənənələrə, saf dəyərlərə bağlılığı istiqamətində bütün zəruri tədbirlər dövlət səviyyəsində həyata keçirilir.

Bu yolda gənclərimizin ən böyük himayəçisi və dəstəkçisi olan Azərbaycan Prezidenti İlham Əliyevin “Mənim gənclərə xüsusi münasibətim var, mənim ürəyim sizinlədir. Siz bütün işlərdə mənə arxalana bilərsiniz. Mən də sizə arxalanıram” – sözləri Azərbaycan dövlətinin gənclərə etimadının, gənclərin isə Prezidentə məhəbbətinin bariz nümunəsidir. Məhz bu qayğının nəticəsidir ki, elm, təhsil, mədəniyyət, gənclər siyasəti və gənclərlə iş, ictimai və sosialyönümlü fəaliyyət, innovasiya və sahibkarlıq sahələrində xüsusi fərqlənən gənclərə 2021-ci il Gənclər üçün Prezident mükafatları verilib. Çox sevindirici haldır ki, Prezidentin Sərəncamı ilə Naxçıvan Dövlət Universitetinin Memarlıq və Mühəndislik fakültəsinin “Memarlıq” kafedrasının müəllimi İsmayıllı İsmayıl Cəfər oğlu da 2021-ci il Gənclər üçün Prezident mükafatı ilə təltif edilib.

İsmayıl İsmayıllı 1991-ci ildə Ordubad rayonunun Nüsnüs kəndində anadan olub. 2012-ci ildə Naxçıvan Dövlət Universiteti “Memarlıq və Mühəndislik” fakültəsinin “Memarlıq” ixtisasına daxil olub, 2016-cı ildə həmin ixtisası fərqlənmə diplomu ilə bitirib. 2016-2017-ci illərdə Naxçıvan Dövlət Universitetində metodist, 2017 -ci ildən “Memarlıq” kafedrasının müəllimidir.

Hələ uşaq yaşlarından yaradıcılığa xüsusi meyl edən İsmayıl darıxdığı vaxtlarda öz fırçasının sehrinə dalırdı. O, sanki özünü yaradıcılıq sahəsində tapırdı. Hər həftənin şənbə, bazar günləri oxuduğu məktəbdə təşkil edilən dərnəkdə müəllimi və ustadı Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Cavid İsmayılovdan dərs alırdı. Rəssamlığa xüsusi həvəs göstərən İsmayıl Cavid müəllimin sayəsində bu peşənin elmi sirlərinə də bələd olurdu. Məktəbdə bütün fənləri yaxşı oxusa da, rəssamlıq qabiliyyəti İsmayılı bu sahəyə yönləndirmişdi. Artıq fırçasını rəsmxətt sahəsində də sınaqdan keçirən İsmayıl gələcəkdə memar olacağını qarşısına məqsəd qoymuşdu.



Gənc memarla söhbətimizdə o, Bakıdakı Heydər Əliyev Mərkəzinin dizaynının müəllifi Zara Hadidin sözlərini xatırlayır. “Bir məkanı yaratmaq qədər ikinci gözəl bir şey ola bilməz”. Elə gözəlliklər yaratmaq arzusuyla yola çıxan gənc memarımız hər gün yeni bir gözəllik yaratmaq eşqinə düşür və bu arzu, istək sayəsində maraqlı və gözəl layihələrə imza atır. İsmayıl yaratdığı hər binanın eskizini qurarkən orada yaşayacaq olan insanları, onların rahatlıqlarını düşünür. O inanır ki, qurduğu hər eskiz gələcəkdə sahibinə xoşbəxtlik, hüzur, sevinc bəxş etməlidir. Müasir dövrdə artıq bəzi kompüter proqramlarının köməyilə gözəl layihələr, eskizlər yaratmağın mümkün olduğunu deyən gənc memar insan təfəkkürünün məhsulu olan işləri qiymətləndirir. Memarlıqda rəssamlığın önəmini diqqətə çəkən İsmayıl məhz rəssamlığın köməyi ilə insan təfəkküründəki eskizi yarada bilmənin verdiyi sevincdən bəhrələnir. O deyir ki, incəsənətin bütün sahələri belədir. İnsan beynindəki məhsulu kağıza həkk edir. Minilliklərdən dövrümüzə qədər gəlib çıxan və tarixə kök salan bütün abidələr məhz insan beyninin, zəkasının məhsulu olduğu üçün bu günümüzə qədər gəlib çıxıb.

Hələ yeniyetmə vaxtlarından yaradıcılıq qabiliyyətini inkişaf etdirən İsmayıl müxtəlif vaxtlarda yarışlarda, müsabiqələrdə iştirak edib, fəxri fərman və qiymətli hədiyyələrlə mükafatlandırılıb. 2016-cı ildə Naxçıvan Rəssamlar Birliyində keçirilən “Ətraf mühitin mühafizəsi və biz”, 2016-cı ildə Naxçıvan Rəssamlar Birliyində keçirilən “Gənclərin əsərlərindən ibarət sərgi müsabiqəsində”, 2017-ci ildə Naxçıvan Rəssamlar Birliyində keçirilən “Şəhidlər unudulmaz, hər zaman anılar”, 2019-cu ildə Naxçıvan Muxtar Respublikasının yaranmasının 95 illiyi ilə bağlı bütün sahələr üzrə keçirilən “Muxtariyyətin quruculuq, sabitlik və inkişaf dövrü” yaradıcılıq müsabiqəsində I yeri qazanaraq diplom, pul mükafatı ilə təltif olunub.

2017-ci ildə Naxçıvan Gənclər Fondunda keçirilən “Naxçıvan müstəqillik illərində” yaradıcılıq müsabiqəsində II, 2016-cı ildə Naxçıvan Gənclər və İdman Nazirliyində keçirilən “Şəhər mühitinin abadlaşdırılması” memarlıq müsabiqəsində II və IV, 2019-cu ildə Naxçıvanda keçirilən “Yaradıcı gənclər festivalında” memarlıq nominasiyası üzrə II yeri qazanmaqla diplom və pul mükafatı qazanıb.

2014-cü ildə Naxçıvan Gənclər Fondunda keçirilən “Muxtariyyətin intibahı” yaradıcılıq müsabiqəsində diplom və qiymətli hədiyyə qazanan İsmayıl 2017-ci ildə Naxçıvan Gənclər Fondu ilə Naxçıvan Gənclər və İdman Nazirliyinin birgə keçirdiyi tədbirdə “İlin fəal gənci”, 2017-ci ildə Naxçıvan Gənclər Fondu ilə Naxçıvan Gənclər və İdman Nazirliyinin ilin yekunlarına görə keçirdiyi tədbirdə “İlin gənc rəssamı” nominasiyası üzrə, 2018-ci ildə Bakıda Azərbaycan Memarlar İttifaqı ilə Gənc Memarlar və Tələbələr klubunun keçirdiyi “Memarlıq universitetlərinin tələbələrinin və məzunlarının işlərinin Beşinci Respublika müsabiqəsində” fəxri fərmanla qiymətləndirilib.

Gənc memar yeni uğurlarından danışarkən Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun dekabrın 14-də Naxçıvan Dövlət Universitetində Texnologiyalar Parkının yaradılması haqqında Sərəncamına əsasən ali təhsil ocağında 2 hektar ərazini əhatə edən Texnologiyalar Parkının eskiz layihəsini xüsusilə qeyd edir. Muxtar respublikada gənclərə göstərilən xüsusi diqqət və qayğıdan ağız dolusu danışan İsmayıl təqdim edilən mükafatı muxtar respublika gəncliyinə verilən xüsusi diqqət və qayğı kimi dəyərləndirir. O qeyd edir ki, bu ali diqqət və qayğını daim öz üzərində hiss edən muxtar respublika gəncliyi göstərilən etimadı layiqincə doğrultmalı, qayğını yüksək dəyərləndirməklə yanaşı, öz məsuliyyətini dərk etməli və respublikamızın dinamik inkişaf edən qüdrətli dövlətə çevrilməsi prosesinə öz töhfəsini verməyə çalışmalıdır.

***P.S Tam inamla demək olar ki, muxtar respublika gəncləri bilik, bacarıq və istedadları ilə hər zaman fərqlənəcək, ölkəmizin ictimai, mədəni həyatında yaxından iştirak edərək onun inkişafına öz töhfələrini verəcək, onlara göstərilən etimadı doğruldacaqlar. Ölkəmizdə gənc nəslin problemlərinin həlli, onların cəmiyyət həyatında layiqli təbəqə kimi iştirakının təmin olunması üçün həyata keçirilən bütün zəruri tədbirlər Azərbaycan gəncliyi daha işıqlı sabaha aparacaq. Biz də inanırıq ki, İsmayıl müəllim başda olmaqla bütün muxtar respublika gəncləri Heydər Əliyev siyasətinin ətrafında sıx birləşməklə Azərbaycanın və doğma Naxçıvanımızın inkişafı istiqamətində aparılan işlərdə daha yaxından iştirak edəcək, göstərilən dövlət qayğısından hərtərəfli bəhrələnəcək və dövlətimizin çiçəklənməsi uğrunda bütün səy və bacarıqlarını əsirgəməyəcək.***

***Səadət Əliyeva***
***Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***

# DƏRDİN ALTMIŞ BEŞİNCİ NƏĞMƏSİ

Həyat ona aşiq olanları bağrına basar, əzizləyər, zamanı gəldikdə isə qara torpağa pay edərək əsil vətəninə, son mənzilə yola salar. Hərdən dönüb arxaya nəzər saldıqda xatirələr bizi bəzən elə bürüyür ki, ömrümüzün hansı gününü necə yaşadığımızı unuduruq. Ölüm! Bu elə bir görüşdür ki, həm labüddür, həm də heç mümkün deyil, artıq o gələn kimi bizdən qalan sadəcə söz olur. Biz yox olan kimi isə o bizim boşluğumuzu doldurur. Görəsən ölüm gəldiyi an onun qarşısına çıxıb onu tanıya bilərikmi? Dünyada ən çox dəyər verdiyimiz bir varlıqdan ayrılanda bilirik ki, bizi məhəbbətimizdən başqa heçnə bir-birimizə bağlamayacaq və o daima xatirələrdə yaşayacaq. Öz-özümüzə elə hey deyirik ki, ölüm heçnədir, yalnız qorxu, günahlardan arınma, fiziki işkəncə, sevdiklərimizdən ayrılmaq əzabı, yaxud da başlanmış bir həyatın həzin sonu. İndi sən bizim ölümlə tanışlığımızsan. Ölüm bizi haqlayanda sənə yaxın olmaq yox, sənin keçdiyin tanış bir yolla gedəcəyimizi düşünəcəyik. Bir gün yuxudan oyananda görəcəyik ki, xoşbəxtik, ağrıacı hiss etmirik, yara alsaqda bu yara bədənimizin bir üzvünə çevrilib, amma istəyirik ki, həmin yara daha bizə əzab verməsin. İndi sən bizə xəyal qədər uzaqsan. Xəyalı yox etmək üçün isə gərək onun əsli mövcud ola. 65 illik yaşamında səni sevən hərkəsin ürəyinə yol tapa, sirdaşlaşa və lallaşa bildin. Hər addımın bir nümunə, hər nəfəsin öyüd oldu. Tələbələrin könül lövhələrinə həkk olunan nümunəvi müəllim, övladların üçün milli-mənəvi dəyərlərə üstünlük verən qayğıkeş ata, müəllim yoldaşların üçün dolmayan gözəl bir boşluq oldun. Ömrün 65-ci yayında sənidə gözümüzdən axıtdıq gilə-gilə. Amansız həyat səni bizdən uzaqlaşdırdıqca, bizi sənə yaxınlaşdırır. Geriyə qalan isə yalnız əməllər olur.

Nizami müəllim! Ona verilən ömür payını Dərələyəzdən köçüb gələrək Kültəpə kəndində məskunlaşan Vəzir kişinin daxmasında tamamlayaraq ömür yoluna işıq tutdu. Bu evin qapıları hərzaman hərkəsin üzünə açıq oldu. Heçkəsə bu qapıda ağır söz deyilmədi, gülüşlərlə qarşılanıb mehribançılıqla yola salındı. Zamanın ağır sınaqlarında bu evdə öz beşiyində yırğalanan nur üzlü körpə, ağrı-acı hiss etmədən Ana təbəssümü, Ata qayğısı ilə qarşılandı öz daxmasında. Kaş görərdi dünyaya gəldiyi zaman gözlərini açarkən tək ailəsi tərəfindən qarşılanmışdısa əbədiyyətə qovuşarkən bütün el baxdı gözlərinə. Nə qədər yaş süzüldü gözlərdən inci tək. Gedərkən özü ilə apardığı var, dövlət, məhəbbət, hörmət mirvari tək kirpiklərə düzüldü. Arxasınca fəryad qoparan sinəsi dağlı ailə, ah çəkən el, hıçqırıqlarını boğa bilməyən ziyalılar və tələbələrin sənə rəhmət oxuyaraq məhəbbət qiyafəsini dəyişib səni, solmuş, saralmış, rəsimlərdə, Ana torpağa əmanət etdilər.

Daha o əllər tumarlamayacaq oğul başı, toxunmayacaq qız hörüklərinə,



nəvaziş etməyəcək körpə nəvələri, daha silinməyəcək lövhədəki yazılar tələbələrinin yaddaşından, üzlərdə qırılan gülüş, dodaqlarda qalan söz, boğazlarda düyünlənən hıçqırıq olacaqsan. Sevgi nə solar nə ölər. İtirdiklərimizi itkiləri ilə sevirikсə onbeş il sonra, otuz il sonra da sevə bilərik, bəlkə fərqli, bəlkə daha solmuş və saralmış bir eşqlə çünki, o bizim bir parçamıza çevrilir artıq.

Ölüm yaraşmadı sənə ustad! O ağır addımlarla necə gəlmişdinsə həyatımıza elə ağır-ağır getdin cərgələrimizdən. Yanaqlarımıza axan göz yaşlarımızla torpağa qucaq açdın. İz buraxdığın hər səmimiyyətdə, toxunduğun hər əşyada xatırlanan, anılan, ürəklərdə hər zaman yad edilən dəyərli müəllim! Zaman keçdikcə yaralarımızın sağaldığını hiss edirik, lakin dönüb geridə buraxdıqlarımıza baxdıqda onların sağaldığını yox, öldüyünü görürük.

İndi tələbələrin öz otağında sən qoxan kitabların yanı başında içinə axıtdığı göz yaşının səsinə səs verərək lallaşır, sənsiz keçən zamanın zamansızlığını sənin yoxluğunda anlayır və yanaqlarından axan yaşların nə qədər dəyərli bir müəllim üçün axdığını başa düşürlər. Gözün sözü, dilin sözündən daha səmimi və daha sadiq deyilmidir? Göz yaşı ən gözəl şeir, ən gözəl səs, ən taqətsiz eşqin qanadlarındakı çırpınış, ən boş liman, ən isti damla, ən alovlu duyğu, ən təmiz söz, ən təmiz vicdan və ən həlim sevgidir. Bu ənlərin hamısı bir ürəyin ortasında çalxalanaraq ariyər və isti bir damlaya dönər... Gözyaşına!!! Artıq bu gözyaşlarının görünən tərəfində nümunəvi bir müəllim, el ağsaqqalı, milli-mənəvi dəyərlərə hər zaman sadiq olan bir vətənpərvər, ailəsinə ruhu ilə bağlı olan bir örnək insan gördüyümüz halda, bu gözlərin görünməyən tərəfində bir boşluq, bir heçlik, hər kəsin gedəcəyi, heç kimin qalacağı bir dünya görürük. Yaşamın heçlik olduğu bu maddi aləmdə yarım qalan ömrünlə, müəllim adına layiqliyinlə bizlərə göstərdin ki, cəhənnəm əzabı çəksək də cənnətin kölgəsini yaratmalıyıq. Ölümlə, itimlə yox, zəhmətlə, bilgiylə, hünərlə, elmlə!!!

Nəsirov Nizami Vəzir oğlu 11 noyabr 1953-cü ildə Kültəpə kəndində anadan olub. 1960-1964-cü ildə Kültəpə ibtidai məktəb, 1964-1970-ci illərdə Kərimbəyli kənd orta məktəbini bitirib. 1971-ci ildə ADPİ-nun Alman-fransız dilləri fakültəsinin Alman dili ixtisası üzrə təhsil almış, 1975-ci ildə həmin institutu bitirərək Naxçıvan MR Təhsil Nazirliyinin təyinatı ilə Şahbuz qəsəbə orta məktəbinə xarici dil müəllimi təyin olunub. 1976-1977-ci illərdə Sovet Ordusu sıralarında hərbi xidmətdə olub. Ordudan tərxis olunduqdan sonra 1994-cü ilə qədər Kültəpə kənd 8 illik məktəbində xarici dil müəllimi və hərbi rəhbər kimi fəaliyyət göstərib. 1994-cü ildən Naxçıvan Dövlət Universitetində əvvəl saathesabı sonra tam ştat müəllim işləyib. 1996-2000-ci illərdə burada Roman-german dilləri kafedrasının müdiri vəzifəsində çalışıb. 2000-2015-ci ildə baş müəllim, 2015-2017-ci illərdə Beynəlxalq münasibətlər və Xarici dillər fakültəsində dekan müavini vəzifəsində çalışıb. 11 iyul 2019-cu ildə vəfat edib.

**Fariz Əhmədov**
***Elmi kitabxanın direktoru***

# XOCALI SOYQIRIMI İNSANLIĞA QARŞI TÖRƏDİLMİŞ CİNAYƏTDİR. BU CİNAYƏTİ ERMƏNİSTAN DÖVLƏTİ TÖRƏDİB!

## FACİƏDƏN DOĞAN QİSAS

Xocalı... Yaralı yerimiz Qarabağ idisə, qanayan yaramızdır Xocalı... Qürurumuzun, ləyaqətimizin təhqir olunduğu, insanlığın utanc anıdır Xocalı...

1992-ci il... Fevral... 26 rəqəmi... İlahi, insan təqvimdən, ildən, aydan utanarmı?! Biz utandıq! Donan, vəhşicəsinə qətl edilən, dünyaya göz açmamış yaşamaq haqqı əlindən alınan körpələrdən, ağ duvaq nəsibi olmayan qızlardan, əlinin xınası qanlı palçığa qarışmış gəlinlərdən, yeriməyə taqəti qalmayan, övladlarına yük olmamaq üçün "məni buraxın, siz qaçın" deyən ahıllarımızın ahnaləsindən, övladı qucağında donan-düşmən əlinə keçməsin deyə əli ilə övladını boğan anaların səssiz fəryadından utandıq! Biz Sizin qisasınızı ala bilməməkdən utandıq, xocalılılar!..

Yağı düşmən nə düşünürdü?! Bütün dünya kimi bizim də sonsuzadək gözümüzü, qulaqlarımızı bağlayıb, haqq səsimizi öz fəryadımızda boğacağımızımı?! Təbii ki, çox yanılırdılar, həm də çox! Vaxt yetişdi, vədə çatdı! İlbəil daha da azğınlaşan, iştahı daha da qabaran, insan qanına gözü doymayan qarı düşmənə dur deməyin məqamı idi!

Bəli, daşıya bilmədiyimiz vicdan yükü, namus yükü, intiqam yükü ağır idi! Dözə bilmirdik! Amma bilirdik ki, hər şeyin vaxtı var! "Haqq nazilər üzülməz" deyib atalar. Tapdalanan haqqımızı, əlimizdən alınan mənəviyyatımızı geri almağın, bizim olanı bizə qaytarmağın vaxtı çatmışdı! Artıq heç bir güc bizim Xocalının, xocalılıların və müxtəlif tarixlərdə vəhşicəsinə həyatına son qoyulmuş doğmalarımızın qisasını almağımıza mane ola bilməzdi! Şəhidlərimizin qanı yerdə qala bilməzdi! Xocalıya ədalət şüarımızı məhz özümüz reallaşdırmalı, ədaləti biz bərpa etməli idik!

Kimsə saxlaya bilərdimi ailəsi gözü qarşısında işgəncələrə məruz qalan, təhqir olunan, qətl edilən oğulları?! Dur demək asan idimi körpəlikdən Qarabağ laylası ilə böyüyən igidlərə?! Əsla!

Faciədən, soyqırımdan doğan qisas daha böyük olurmuş! Qeyrətdən, təəssübdən, nifrətdən doğan intiqam hissi daha qarşısıalınmaz olurmuş! Ana Vətənin çağırış harayı evdəki körpənin-ata, getmə!- sözündən daha ötkün olurmuş! Qucaqdaqundaqda qaçqın düşən oğulların tank üstündə qayıdışı daha möhtəşəm olurmuş!

Ali Baş Komandanına arxalanan, xalqına, ordusuna güvənən, xalqı üçün, namus, qeyrət davası üçün canını qurban deyən, şəhadəti qürur sayan oğullar idi 44 günlük DASTAN yazan! O oğullar ki, hər gün düşmənlə üz-üzə dayanıb ədalətin bərpa olunacağı günü gözləyirdi! O oğullar ki, qız-gəlin qarşısında başı aşağı dayanıb öz-özünə hər saniyə- kaş ki, "irəli" əmri bu gün verilərdi- deyə düşünürdü! O oğullar ki, məhz nə vaxtsa Xocalının qisasını almaq eşqilə o kişilik rəmzi libasları-hərbi formaları geyinərək üçrəngli bayrağımıza and içmişdilər! Onlar-məhz o oğullar yazdı qələbə dastanımızı! Hər addımında Allaha arxalanan oğullar! Döyüşdə belə mərdlik, ləyaqət göstərərək- sən ailəlisən, özünü qoru, səni gözləyən var-deyib özünü döyüş yoldaşına sipər edən qəhrəmanlar! Tanksız, topsuz Şuşaya bayraq sancan igidlər idi Xocalının qisasını alan!

Göydə Allah, ürəyinin üstündə üçrəngli bayraq, arxasında xalq, dövlət olan, yalnız Ali Baş Komandanına arxalanan oğullar! Vətən sizə oğul dedi! Xalq sizə qəhrəman dedi! Siz isə ailəniz, övladlarınız, hətta nişan üzükləriniz belə geri çəkilməyə, silahı atmağa vadar edə bilmədi! Son güllənizi isə əsir düşməkdənsə şəhadət yaxşıdır-deyə özünüz üçün saxlamışdınız! Belə də etdiniz!..

Tarix təkrardan ibarətdir, deyiblər! Amma bilməyiblər ki, sizin kimi oğullar tarixi başdan yazacaqdı! Tarix fənnindən üç alanlar özləri tarix olacaqdı!

Xocalı! Daşın-torpağın illər keçsə də, qan ağlayacaq olsa da, qaysaq bağlayan yaran hər il 26 fevralda yenidən qopsa da, biz yenə də səni, sənin övladlarını unutmasaq da, azca da olsa qəddini dikəlt, başını qaldır, Xocalı! İntiqamın alındı! Səni tarix kitablarından tanıyan övladların qisasını qiyamətə qoymadı! Mübarizlər, Poladlar, Cəbrayıllar, Xudayarlar çatdı harayına, Xocalı!

Siz də rahat uyuyun, şəhidlərim! Tarixin şahid olduğu şəhadətiniz mübarək! Hələ bu xalq çox dastanlar yazacaq! Sizin kimi igidləri olan Azərbaycan daim yaşayacaq! Üçrəngli, ay-ulduzlu bayrağımız daim dalğalanacaq!

**Aidə Cəlilzadə**
*İngilis dili və tərcümə kafedrasının baş müəllimi*

## XOCALIDAN ŞAHİD VAR

XX əsrin 80-ci illərinin ikinci yarısından erməni daşnaklarının heç bir ağla və məntiqə söykənməyən "böyük Ermənistan yaratmaq" iddiası ilə başlatdıqları işğalçılıq siyasəti 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Xocalını külə döndərdi. Həmin gecə 366–cı motoatıcı diviziyanın köməyi ilə dinc əhaliyə divan tutan ermənilər XX əsrin tarixinə ağır bir faciə yazdılar. Bu faciədə 613 nəfər zülüm və sitəmlə qətlə yetirilmiş, 487 nəfər yaralanmış, 1275 nəfər əsir götürülmüş, 150 nəfər isə itkin düşmüşdür.

Həmin qanlı gecənin canlı şahidlərindən olan Zənurə xanım 1965-cu ildə Naxçıvanda doğulmuş, 1987-ci ildən Xocalıya köçərək orda məskunlaşmışdı. Uşaqlığının ən gözəl xatirələri Naxçıvanla bağlıdır, - deyən Zənurə xanımın istəyi hər bir gənc qızın arzu etdiyi kimi ata ocağından ağ gəlinliklə, xeyir-duayla başqa ailəyə yola salınmaq idi. Yola salındı da. Ancaq bütün xoşbəxtliyi həmin gecə ermənilərin həyətə atdığı top mərmisinin zərbəsi nəticəsində evini işıqlandırdığı gəlinlik lampasının sönməsi ilə başa çatdı.

Müsahibimizə həmin gecə haqqında yaşadıqlarını danışmasını xahiş etdim. Bir qədər fikrə getdikdən sonra dərin bir "Ah" çəkib söhbətə başladı..

- Mən də həmin qara gecənin canlı şahidlərindənəm. Ermənilər yalnız həmin gecədə qətliam törətmədilər. Hələ 1988-ci ildən evlərimizi, yollarımızı ara-ara atəşə tutur, bəzən də böyük artilleriyalarla kəndi bombardıman edirdilər. 1991-ci ildən isə Xocalı artıq blokada vəziyyətinə düşdü. Bütün şəhərlə və digər ra-




yonlarla o cümlədən, Bakıyla əlaqəmiz tamam kəsildi. Kəndin çörək zavodu fəaliyyətini dayandırdığına görə həftədə bir dəfə helikopter aeroporta enib kiçik təlislərdə ailə üzvlərinin sayına görə bizə kündələr verib gedirdi. Fevralın 24-də atışma dayandı. 4 il başımıza leysan kimi yağan mərmilərin ardı kəsilmişdi. Bu xoşagəlməz sükut çox insanın arzusu olsa da biz Xocalı camaatını qorxuya salırdı. Necə oldu? Bəyəm müharibə bitdi? Bu suallarımız fevralın 25-də öz cavabını tapdı. Atışma başlayanda saat 10-11 radələri olardı. İlk dəqiqələrdə atışma yavaş getsə də bir müddət sonra artıq səsdən qulaq tutulurdu. Ermənilər qaz və işiq xətlərimizi kəsdiyi üçün həmin gecə evdə gəlinlik lampam yanırdı. Birdən həyətdən güclü partlayış səsi gəldi, rəngarəng işiqlar otağın şüşələrindən evin içini tamam aydınlatdı. Hadisədən heç yarım saat keçməmişdi ki, qaynım həyətə daxil olub yoldaşımı səslədi. Yoldaşım tez özünü çölə atdı ki, nə olduğunu qardaşından xəbər alsın, qaynım onu qabaqladı:

-Ay Faiq, tez olun çıxın evdən, ermənilər aeroportu alıb!

-Nə danışırsan?! Day denən Xocalı alınıb da. Hara gedək? Yollar bağlıdı.

-Meşəyə tərəf gedin. Mən gedirəm aeroporta tərəf, Allah amanında!

Qaynımla son görüşümüz belə oldu. Tez içəriyə girib qızımın əynini geyindirib küçəyə çıxdıq. Heç süfrəni toplamağa belə imkanım olmadı. Qızım süfrəyə baxıb dedi ki,: Ana heç olmasa çörəyi götür. Ermənilər ona belə imkan vermədi.

Küçədə başını aşağı əymədən yerimək mümkün deyildi. Zülmət qaranlıqda yolumuzu toplardan, tanklardan, pulemyotlardan çıxan işıqlar aydınladırdı. Səmada sanki göy qurşağı yaranmışdı. Özümüzü bir təhər Qarqar çayının kənarına çatdırdıq. Gördüyüm mənzərədən dəhşətə gəlmişdim. Körpələr, yaşlılar, uşaqlar - bir sözlə, mindən çox adam çayın sahilində səs-səsə vermişdi. Birdən Xocalının özünü müdafiə batalyonunun komandiri Aqil Quliyev meşənin çaylağa enən tərəfindən səsləndi: "Ay camaat meşəyə gedin! Durmayın!". Bu söz sanki bizi yuxudan oyatdı. Güc-bəla ilə çayı qarşıya keçib Kətik meşəsinə girdik. Bütün kənd camaatı burda bir-birindən ayrılıb dəstlərə bölündü, biz də 20-25 nəfər üz tutduq meşəyə, özümüzü Ağdama çatdırmaq ümüdi ilə...

Yer qar, hava şaxta, sanki təbiət də bizə divan tuturdu. Əllərimizlə ağac budaqlarını yara-yara "Beşmərtəbə" deyilən yerə gəlib çıxdıq. Elə təzəcə ağaca söykənib qızımı sakitləşdirirdim ki, birdən qışqırtı səsi bütün meşəni bürüdü. Yoldaşım başımı qucaqlayıb arxaya baxmağa qoymasa da, bildim ki, fəryad səsi övladı ölən ananın naləsi idi. Həmin meşədə erməni əlinə girov düşməmək üçün nəfəsi süd qoxan övladını boğub öldürən analar gördüm. Burda çox dayana bilmədik, çünki dayanmadan atırdılar. Bədənimizi don necə vurmuşdusa ayağa qalxa bilmirdik. Çətinliklə dirçəlib ağacların arası ilə dayana-dayana bəlkə də, 1 saat yol getdik, sən demə biz yolu itirmişik. 2 gün meşədə yol gələndən sonra gəlib çatdıq Əsgəran-Xankəndi yoluna. O iki gündə nələr oldu həmin meşədə, onu danışmaq istəmirəm, insanın taqəti çatdırmır. Biz həmin yolun kənarına çatanda tək deyildik, bütün kəndin camaatı toplaşmışdı, amma cürət tapb yolu keçə bilmirdik, çünki yolu erməni hiyləgərləri 91-ci ildən nəzarətdə saxlayırdı. Birdən elə həmin yolun Xocalıya gedən tərəfindən "UAZ" markalı maşının pəncərəsindən Əlif Hacıyev başını uzadıb qışqırdı: Ay camaat, keçin o yolu! Arxadan gəlirlər durmayın. Heç sözünü bitirməmişdi ki, arxamızda avtomatlar şaqqıldadı. Mən tez qızımın üstünə özümü atdım ki, qoy güllə dəyməsin, amma.......

Başını aşağı salıb ağlayır......

-Qızım qulağıma ağlaya-ağlaya elə yana-yana dedi ki, ay ana, mənə güllə dəydi, elə bildim bütün dünya başıma kül oldu ələndi. Atışma səngiyən kimi ayağa qalxdım, qızımın böyründən dəymişdi mərmi, bir güllə də mənim topuq nahiyəmə və yoldaşımın çiyninə tuş gəlmişdi. Başımdan şalı açıb uşağı belimə bağladım, Allahı çağıra-çağıra düzəldik yola. Ağdama çatmağımıza 10 dəqiqəlik məsafə qalırdı ki, arxadan səs gəldi: Əllər havaya....

Müsahibim deyir ki, Xocalı faciəsinin ən ağır hadisələrini əsirlikdə olarkən görüb.

- O rütubət qoxan zirzəmi soyuq da olsa insana cəhənnəmi xatırladırdı. Yerdə palçıqlı gölməçələr, divarlarda qan ləkələri insanın az qala ağlını başından çıxarırdı. Zirzəmidə bizi yoldaşımdan ayırdılar. Xanımları və uşaqları bir bölməyə, kişiləri başqa bir bölməyə qatdılar. Divarın yuxarısında kiçik bir pəncərə var idi. O pəncərədən boylanıb çölə baxanda sanki qorxulu bir film izləyirdik. Xatırlayıram ki, 19-20 yaşlarında bir gəncə işgəncə verib sonra da başını kəsdilər. Burada nə qədər qaldığımızı isə unutmuşam. Təxminən 2 gün qaldıqdan sonra məni və qızımı Ağdam sərhədinə erməni əsirlərlə dəyişməyə gətirdilər. Ondan sonra gözlərimi mart ayının 5-də xəstəxanada açdım. Başımın üstündə qızım, yoldaşım daynmışdı, hər ikisi sağ idi. Həkimlər mənə bətnimdəki körpəmin tələf olduğunu dedilər.

Xəstəxanadan çıxanda gördüyüm mənzərəni unuda bilmərəm. Meyit əlindən məscidin həyətində yerimək olmurdu. Bir ana hey məscidin həyətində vargəl edir, oğlunu axtarırdı. Sonradan məsçidin arxasında, tanınmaz halda olan meyitlərin içərisindən tapdı oğlunu.

Yaşadıqlarını dilə gətirərkən əlində tutduğu açar, bir də kiçik bir gödəkcə diqqətimizi çəkdi. Nə olduqlarını soruşanda göz yaşlarını saxlaya bilməyib bayatı söylədi.

Əzizm vətən yaxşı.
Geyməyə kətan yaxşı.
Gəzməyə qərib ölkə,
Ölməyə vətən yaxşı.

Bu yerdə ötən hanı?
Cığırı itən hanı?
Mənə qərib deməyin,
Bəs, onda Vətən hanı?

-Bu açarlar Xocalıdakı evimizin açarıdı. Bilirdim ki, biz nə vaxtsa qayıdacağıq yurdumuza, evimizə. Gödəkcəni də, öz əllərimə bir dəfə də, ağzından "Ana" kəlməsini eşitmədiyim balama toxumuşdum. Allah heç bir Anaya övlad dağı verməsin.

Müsahibimiz son olaraq Qarabağın işğaldan azad olunduğu xəbərini eşitdikdə yaşadığı xoşbəxtliyi sevinc göz yaşları ilə dilə gətirdi.

- Xəbəri alanda da, indi olduğu kimi ağladım. 28 illik həsrətin bitməsi mənə yuxu kimi gəlirdi. Bir arzum var idi ki, Xocalı alınsın, ayaqyalın-başı açıq gəldiyim kimi, elə də qayıdım evimə. Biz bu sevincə görə başda Ali Baş Komandanımız olmaqla Vətən yolunda canını qurban verən oğullara borcluyuq. Xocalının ən körpə şəhidinin anası kimi bütün şəhid valideynləri qarşısında baş əyirəm. Bu ağrı-acını Allah bir də xalqımızın başına gətirməsin.

Zənurə xanım kimi, elindən didərgin düşmüş bütün soydaşlarımızın Vətənə qovuşması ümidi ilə..

**Məcid əkbərov**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

## QOCAMAN BİR MİLLƏTİN DUZ SƏPİLMİŞ YARASI- XOCALI

29 ilin ağrısından, acısından, dərdindən, kədərindən, heç bir zaman unudulub, yaddan çıxmayacaq yarasından-Xocalıdan danışacağıq, Xocalıdan. Hardan baxsaq nə yerlərin nə göylərin qəbul etmədiyi bu soyqırımının bağrımıza çəkdiyi şırım yerlə göyün arasına böyük gələr. O gün Xocalıda baş verənləri düşündükcə donub qalıram, bir ananın həmin vaxt balasını qanlar içində gördüyü an donub qaldığı kimi. Qulağımdan qan gəlir o ananın fəryadını hiss etdikcə. İliyə kimi titrəyirəm bu vəhşiliyin qarşısında. Axı o körpələrin nəydi günahı?

Hələ qulaqlarının layla səsi eşitməli vaxtlarıydı silah səsinə oyanırdılar, birbirlərindən qaçaraq gizlənqaç oynamaq yaşlarıydı mərmilərdən qaçırdılar.

Bir də top oynamalı vaxtlarıydı onların, çox təəssüf tanrı istədikləri topu səhv anlamışdı...

Həmin vaxt o camaatın ürəklərində qalıb içlərini məhv edən bir cümlə vardı: "Axı biz neyləmişdik?"

İndi o cümlə Bəxtiyar Vahabzadənin dili ilə desək, günahsız qurbanların baş daşında səslənir. Onların yetim qalan körpə balalarının dünyadan haqq istəyən göz yaşında səslənir...

Axı onlar neyləmişdilər...

Nə etmişdilər ki, 63 uşaq gözlərindəki ümidlərlə bərabər öldü, 106 qadın həyata xəyanətlər bahasına gözlərini əbədi yumdu, 8 ailənin bir ömürlük çırağı söndü. İndi hardasa 25 insan var 29 ildir ki, hər iki valideynlərinin yasını tutan. İndi hardasa analar var övladına həm ata, atalar var övladına həm ana olan.

Xocalı...
Qocaman bir millətin
Duz səpilmiş yarası.
Çırağı söndürülmüş,
Ocağı dağıdılmış
Gəlinlikli qızların başlarının qarası.

Bəli, Xocalı deyəndə gözü yaşlı ananın hayqırtısı, naləsi yada düşür. Ağlayıb fəryadını Tanrıya qədər çatdıran körpənin gözlərinin önündə sakitcə uyuyan ailəsinin təsviri gəlir gözlərimiz önünə.Xocalı nəhəng bir millətin fevralın soyuğunda titrəyən ürəyiydi. Xocalı Azərbaycanın qara bəxtli gözəliydi. O gözəl ki, taleyinə öz doğma sakinlərindən ayrı düşmək, qismətinə yadın qara pəncəsi tərəfindən darmadağın edilmək yazılmışdı.

Xocalı...
Ürəyi qisas dolu.
Qəlbiyara millətin acısı və göz yaşı.
Azərbaycan adlanan zərif, qızıl üzüyün
Parlaq brilyant qaşı.
Xocalı...

Ürəyi qisas dolu, bəli, o qisas ki, 29 ildə bir saniyə də olsa sönmədi. İllər keçsə də bu mətin xalq nə o günü unutdu, nə də günün səbəbkarlarını. Günlər ayları əvəz etdi, aylar illəri. Və nəhayət hər bir azərbaycanlının səbirsizliklə gözlədiyi qisas günü yetişdi. Bir çox bəlalarla gəldi 2020-ci il, amma bizim Azərbaycana zəfərlə gəlib qələbə gətirdi. 27 sentyabr 2020-ci ildə başlayan 2-ci Qarabağ müharibəsi 44 gün sonra şanlı Azərbaycan Ordusunun zəfəri ilə sona çatdı. Nəinki düşmən, bütün dünya qısa bir müddət ərzində Azərbaycanın gücünə şahidlik etdi. Müzəffər Azərbaycan ordusunun göstərdiyi böyük şücaət qarşısında atıb silah-sursatını, atıb döyüş bayrağını meydanlardan qaçıb getdi yağı düşmən. Beləliklə qələbənin, zəfərin ünvanına çevrildi ana vətən. Qarabağ geri döndü. Xocalımız qayıtdı. Nəhayət ki, illər sonra üçrəngli bayrağımızı alnıaçıq şəkildə öpüb, bağrımıza basa bilirik. Nəhayət ki, müqəddəs Şəhidlər xiyabanına üzüağ gedə bilirik. Qisas qiyamətə qalmaz deyənlər, qalmadı qisas qiyamətə. Çingizdən, Salatından, məktəbli Larisadan Mübarizə, Polada kimi bütün şəhidlərimizin qisası alındı. Artıq bir zərrəsi belə yad əllərdə əsir deyil yurdumun. İndi bütün şəhidlərin ruhu şaddır. Azadlığa çıxıb Xocalının, Şuşanın, Kəlbəcərin, Laçının qara buluddan xilas olan mas-mavi səmasında dolaşır. Və biz illər sonra nəhayət ki, bu gün 26 Fevral Xocalı Soyqırımı şəhidlərinin əziz xatirəsini qisaslarını almış qalib xalq kimi yad edirik. Torpaq qanla qarışanda Vətən olur deyiblər. Allah bu torpağı Vətən etmək üçün canlarından, qanlarından keçənlərə rəhmət etsin.

**Qızbəsti Sultan**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***

# XOCALI QURBANLARININ QANI İKİNCİ QARABAĞ MÜHARİBƏSİNDƏ ALINDI!

## VÜQARINI DAĞLARDAN ALAN VÜQAR

Hər bir insanın doğulduğu, böyüdüyü və son nəfəsini verdikdən sonra əbədi yuxuya getdiyi bir torpaq vardır. Bu torpağa Vətən deyirik. Vətən millətin azadlığının və müstəqilliyinin simvoludur. Məhz bu səbəbdən insanlar ürəklərinin bir tərəfində hər zaman böyük bir sevgi olan Vətən sevgisini daşıyırlar. Bu sevgi sadəcə doğulduğumuz torpağı sevmək deyil, eyni zamanda mənsub olduğumuz milləti, vətəndaşı olduğumuz dövləti, azadlığımızın simvolu olan ay-ulduzlu şanlı bayrağımızı, dilimizi, adət - ənənələrimizi sevməkdir.

Düşmənin işğalçılıq siyasətinə son qoymaq üçün apardığımız 44 günlük müharibədə ürəyi bu sevgiylə dolu insanların qəhramanlıqları və fədakarlıqları tariximizə yeni bir tarix qatdı. İkinci Qarabağ müharibəsində ən yeni və qürurlu tariximizi yazanlar arasında qəhrəmanlar diyarı olan Naxçıvanın qorxmaz, yenilməz, məğrur igidləri də oldu. O igidlərdən biri də Əsgərov Vüqar Rza oğlu idi.

Vüqar 1994-cü ilin 26 noyabrında Kəngərli rayonunun Qarabağlar kəndində doğulub. İnsan taleyini adında yaşayır, deyiblər. Bəli, Vüqar da adının haqqını layiqincə verdi - öz əzəməti və vüqarı ilə… Vüqar təbiətcə sakit, səmimi və hamı ilə ünsiyyət qura bilən bir gənc idi. Bu səbəbdən ətrafındakı insanlar tərəfindən çox sevilirdi. Vüqar orta təhsilini Qarabağlar kəndində birinci Qarabağ müharibəsi şəhidi olan Əbülfəz İmanovun adını daşıyan məktəbdə almışdı. Universitetə qəbul olsa da, ailəsinin maddi çətinlikləri olduğu üçün ali təhsil ala bilməyib. Atası Rza kişi ağır şəkərli diabet xəstəsi olduğundan ailənin bütün yükü Vüqarın üzərinə düşür. Hər zaman özündən çox ətrafındakı insanları düşünən Vüqar hərbi xidmətdə olduğu vaxtlarda da nizam - intizamı, qayğıkeşliyi, ayıq-sayıqlığı, vətənpərvərliyi ilə seçilirdi. Verilən döyüş tapşırıqlarını yüksək



dəqiqliklə yerinə yetirən Vüqarın arzusu vətəni Azərbaycanı azad görmək idi. Hərbi xidmətini bitirdikdən bir qədər sonra vətənə səngərdə xidmət etmək arzusu onu müddətdən artıq xidmət edən hərbi qulluqçu olaraq yenidən səngərə qaytarmışdı. Vüqarını dağlardan alan Vüqar igidliyi, qorxmazlığı, vətənpərvərliyi ilə komandirlərinin sevgisini qazanmağı bacarır.

2020-ci ilin 27 sentyabrında torpaqlarımızın azadlığı uğrunda başlanan Vətən müharibəsində Qarabağı işğaldan azad etmək üçün könüllü olaraq döyüşə gedən Naxçıvan igidlərinin cərgəsində Vüqar da var idi. Elinə - obasına, torpağına bəslədiyi sevgisi ilə zirehlənən Vüqarın qəlbində düşmənə duyduğu nifrət və qəzəbi onun ən güclü silahı idi.

Döyüşdə iştirak etdiyi vaxtlar yoldaşları ilə danışarkən yaxın günlərdə Qarabağı tam azad edəcəklərini və çox sevdiyi futbol oyununu Cıdır düzündə oynayacağını deyirmiş Vüqar. Hər zaman verdiyi sözləri yerinə yetirən Vüqar həyatında ilk dəfə olaraq atasına verdiyi "Ata, narahat olma, torpaqlarımızı alıb sağ-salamat sənin yanına qayıdacağam" sözünü tuta bilmədi.

Müharibədə igidlik göstərən Vüqar 25 oktyabr 2020-ci ildə Qubadlı uğrunda gedən döyüşdə qəhrəmancasına vuruşaraq şəhid oldu. Azadlığımız üçün canlarından keçən 2802 igiddən biri olan Vüqar ölümü ilə ölümsüzlük zirvəsini qazanaraq şəhidlik məqamına ucaldı.

Azərbaycan Respublikasının Prezidenti Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən Azərbaycan Respublikasının ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında iştirak etmiş və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirmiş Azərbaycan Respublikasının hərbi qulluqçusu Əsgərov Vüqar Rza oğlu (ölümündən sonra ) "Vətən uğrunda" medalı ilə təltif edildi. Hər bir şəhidi hava limanında hər kəsə örnək ola biləcək şəkildə böyük sayğı və hörmətlə qarşılayan Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dekabrın 14-də imzaladığı Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların və şəhid ailələrinin təminatına "Dəstək fondu"nun yaradılması haqqında Sərəncamı isə şəhid ailələrinə göstərilən diqqətin ən gözəl nümunəsidir.

Vətən uğrunda, bayrağımız uğrunda şəhid olan Vüqarın atası Rza kişi fəxr edir ki, bu gün oğlu ilə bütün Azərbaycan qürur duyur. Azadlığımız, suverenliyimiz uğrunda canlarından keçərək 30 illik Qarabağ həsrətimizə son qoyan şəhidlərimizi hər zaman sonsuz sayğı və sevgi ilə anacağıq. Allahdan şəhidlərimizə rəhmət, ailələrinə səbir diləyirik. Ruhunuz şad olsun, Qarabağın azadlıq qoxan Xarıbülbülləri!

## VƏTƏN BORCUNU HƏR ŞEYDƏN ƏZİZ TUTAN QƏHRƏMAN

O, hər gün qürurla üzərində daşıdığı formasını geyinib işə gedirdi. İşdən asudə vaxt tapdıqda isə hərbi hissədə Xocalı faciəsinin qurbanlarının xatirəsinə həsr olunmuş guşənin qarşısında durub fikrə dalırdı. Acı təəssüf, kədər və qəzəb ilə şəkillərə baxanda hər dəfə sinəsinin sol tərəfindən qəribə bir ağrı başlayırdı. Bu şəkillər onu kədərləndirməklə yanaşı, həm də Vətən borcunu xatırladırdı. Hər gün özünə bu sualı verirdi: – Sən bu Vətən üçün nə etmisən?

Bu düşüncələrə dalan II Qarabağ müharibəsində canından keçəcək Niyaməddin Qulu oğlu İsgəndərov idi. Niyaməddin 1985-ci il dekabr ayının 6-sı şaxtalı bir gündə Kəngərli rayonunun Xok kəndində dünyaya gələrək ailəsinə isti nəfəs olmuşdu. Özündən başqa bacı və qardaşının əhatəsində sevgi və nəvazişlə boya-başa çatan bu gənc ailəsində hamıdan çox anasına bağlı idi. Sadə, zəhmətkeş bir ailənin qürurlu övladı olan Niyaməddin xasiyyətinə görə kənddə də hamı tərəfindən sevilirdi. O, 3 il Naxçıvanda Daxili Qoşunlarda müddətdən artıq xidmət edən hərbi qulluqçu kimi sonra öz istəyi ilə oradan ayrılaraq sənədlərini Quru Qoşunlara verərək "N" hərbi hissədə xidmətinə davam etmişdi. O, xarakteri etibarilə çox nikbin biri idi. Həyatda heç bir çətinlik onu ruhdan salmazdı. Ən ağır dərdi isə Qarabağ həsrəti idi. Quru Qoşunlarda xidmət etmək istəyi də düşməndən qisas almaq arzusundan irəli gəlirdi. Elə buna görə də müharibə başlayanda könüllü olaraq adını Qarabağa döyüşmək üçün gedən igidlərin siyahısına yazdırmışdı. İllərdir, ürəyində olan ağrı bu gün azalmışdı. O, çox sevinirdi ki artıq neçə ildir, cavabsız qalan sualına cavab tapmağın vaxtı çatıb. Niyaməddin Vətənə olan borcunu ödəmək üçün düşmən işğalı altında olan torpaqlarımızın azadlığı uğrunda döyüşə gedirdi. Artıq hərbi hissədəki Xocalı soyqırımı şəhidlərinin şəkillərinə baxanda əzab çəkməyəcəkdi, çünki onların qisasını alacaqdı.

Bu sevinclə evlərinə zəng etdi. Doğmaları onu heç bir vaxt bu qədər sevincli görməmişdi. Niyaməddin, sanki müharibəyə deyil, toy-düyünə gedirdi. O, nə ailə quranda, nə də ki, övladları Aytac və Mətanət dünyaya gələndə heç bu qədər sevinməmişdi. Axı Niyaməddin üçün Vətən hər şeydən, hamıdan öncə gəlirdi. İndi o bu sevdası uğrunda mübarizə aparacaqdı. Anamız Azərbaycanı öz bütövlüyünə qovuşdurarkən Vətən borcunu layiqincə yerinə yetirəcəkdi.

Niyaməddin bu sevinclə oktyabrın 18-də – müharibənin qızğın bir vaxtında Qarabağa getdi, döyüşlərdə fəal iştirak etdi. Hər bir kəndi, qəsəbəni, rayonu, şəhəri azad etdikcə Vətənə olan borcunun layiqincə yerinə yetirilməyinin verdiyi sevinc onu daha cəsur bir əsgərə çe-



virirdi. O, döyüş yoldaşları ilə bir an belə, durmadan düşmənin Vətənə dikilən xain gözlərini oyaraq irəliləyirdi. Bu sevinc onu, sanki qanadlandırırdı. Hər gün anası Bəyim xalaya zəng edib yaşadığı sevinci onunla paylaşırdı. Niyaməddin axırıncı dəfə ailəsi ilə oktyabrın 28-dən 29-na keçən gecə danışmışdı. Hər şeyin yaxşı olduğunu bildirmişdi. Sonra ailəsi ondan 24 gün xəbər ala bilmədi. 24 gün Bəyim xala telefon başında oturub oğlunun zəngini gözləmişdi. Noyabrın 21-də ailəsinə Niyaməddinin Xocavənd uğrunda döyüş zamanı qəhrəmancasına şəhid olduğu xəbəri gəlmişdi. Niyaməddinin müqəddəs ruhu azadlıq göyərçini olaraq Qarabağın səmasında şəhadətə yüksəlmişdi. Noyabrın 22-də şəhidin cənazəsi Naxçıvana gətirilərək ehtiramla dəfn edildi.

Niyaməddin Qulu oğlu İsgəndərov ölümündən sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin müvafiq Sərəncamı ilə "Vətən uğrunda", "İgidliyə görə", "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif olundu.

Şəhid qardaşım, sən artıq borcunu qanınla, canınla ödədiyin Vətənin yenilməz, məğrur, igid qəhrəmanısan. Qanla ödədiyin Vətən borcu sənin adını tariximizin şanlı səhifəsinə yazdı. İndi bu xalq 30 illik həsrətdən sonra qovuşduğu azadlığını sizlərə borcludur! Ruhunuz qarşısında sonsuz ehtiramla baş əyirik! Müjdələndiyiniz cənnətdə rahat uyuyun, çünki Qarabağda qazandığınız qələbə Vətənimizi əbədi dirçəltdi!

## ÜRƏYİ VƏTƏN EŞQİ İLƏ DÖYÜNƏN TURAL

Ağlı, zəkası, nitqi, təfəkkürü ilə dünyanın əşrəfi sayılan insan əməlləri, göstərdiyi qəhrəmanlığı ilə ilahi bir mərtəbəyə, müqəddəs olan zirvəyə ucalaraq ölümsüz olmağı da bacarır. Ölümsüzlük zirvəsini fəth edən qəhrəmanlar isə xəyallarından, gəncliyindən, arzularından, sevdiklərindən keçərək Vətən üçün canını verən ŞƏHİDLƏRDİR.

Əsgərli Tural Ələmdar oğlu da vətənin azadlığı, millətin səadəti, 30 illik torpaq, yurd həsrətimizin vüsala qovuşması üçün göstərdiyi igidliyi ilə şəhadətə yüksələn və ölümsüzlük qazanan Naxçıvan igidlərindən biridir. İki bacının tək qardaşı olan Tural 1993 -cü ilin aprel ayının 20-də Naxçıvan Muxtar Respublikası Kəngərli rayonunun Qıvraq qəsəbəsində dünyaya gəlib. 1999-cu ildə Qıvraq qəsəbəsinin tam orta məktəbində I sinfə gedib. Məktəbdə oxuduğu müddətdə çalışqanlığı, məsuliyyəti, tərbiyəsi ilə müəllimlərinin dərin sevgisini qazanan, ailədə də həmişə sözəbaxan övlad olan Tural həm də yüksək fikirləri, nümunəvi davranışı, gözəl əməlləri ilə öz yaşıdlarından fərqlənib. Hələ uşaq ikən ürəyində düşmənə bəslədiyi nifrətdən doğan qisas almaq arzusu Turalı xəyalını gerçək etməyə yönəldir. O, 2007-ci ildə doğmalarından heç kimə xəbər vermədən Naxçıvanda H.Əliyev adına Hərbi Liseyə sənədlərini təqdim edir və girdiyi imtahandan müvəffəqiyyət qazanaraq liseyə qəbul olur. 2010-cu ildə Liseyi uğurla bitirən Tural elə həmin il Bakıda Heydər Əliyev adına Ali Hərbi Məktəbə daxil olur. Burada təhsil aldığı müddətdə mərdliyi, vətənpərvərliyi ilə müəllimlərinin və tələbə yoldaşlarının hörmətini qazanır. 2014-cü ildə Ali Hərbi Məktəbi bitirən Tural ixtisasını təkmilləşdirmək üçün Təlim Tədris mərkəzində zabit kursunu da uğurla başa vurur və 2015-ci ildən leytenant rütbəsi ilə ordu sıralarında xidmət etməyə başlayır. İlk xidmətinə Qazax rayonunda yerləşən N saylı hərbi hissənin ön cəbhəsində tağım komandiri olaraq başlayan Tural hər dəfə səngərdən düşmən postunu müşahidə etdikcə nifrəti kükrəyən selə dönür, daha da çoxalırdı. 2016 -cı ilin aprel döyüşləri başlayanda isə illərdir ürəyindəki qisas yanğısını söndürmək üçün döyüşə yollanır. Çünki o istəyirdi ki, itirilmiş torpaqlarımız tezliklə geri qaytarılsın. Beləliklə, Aprel döyüşlərində düşmənə qan uddurараq igidlik göstərən Tural baş leytenant rütbəsinə layiq görülür.

Sanki dünyaya hərbçi olaraq gəlmişdi Tural. Peşəsi ilə o qədər bütünləşmişdi ki, yorulmaq bilmədən daim vətən üçün çalışırdı. Söhbətcil bir insan deyildi, lakin nə zaman işindən söz düşsə, böyük həvəslə saatlarla bu haqda danışardı. İşinə qarşı çox məsuliyyətli idi. Xidməti dövründə döyüş hazırlığının yüksəldilməsi və hərbi intizamın möhkəmləndirilməsində əldə etdiyi nailiyyətlərə görə 4 dəfə fəxri fərmana layiq görülmüşdü. 2018 -ci ildə Daşkəsən rayonunda yerləşən N saylı hərbi hissədə bölük komandiri kimi xidmətini ön cəbhədə, səngərdə aparmışdı.

Yaxşı hərbçi olmaqla yanaşı, həm də nümunəvi ailə başçısı, qayğıkeş ata idi Tural Əsgərli. O, çox sevdiyi Vüsalə xanımla ailə həyatı qurmuşdu. Vətəninə ön cəbhədə xidmət etdiyi üçün Sevgi və Sunay adlı qızlarını bəzən həftələrlə, aylarla görə bilmirdi. Lakin imkan tapıb evə gəldiyində övladlarının nazını çəkər, onları özü geyindirər, hətta yeməklərini öz əlləri ilə



yedizdirərdi. Əsgərlərini də öz övladı kimi çox sevərdi Tural. Evdən qayıtdığı günlər mütləq əsgərləri üçün xanımının bişirdiyi ev yeməklərindən apardı.

Baş leytenant Tural Əsgərli 2020-ci il 27 sentyabrda başlayan Vətən müharibəsində Murovdağ və Kəlbəcər uğrunda gedən döyüşlərdə qəhrəmanlıqla iştirak etdi. Müharibənin ilk günlərində 3 əsgəri ilə düşmənin 2 postunu ələ keçirdi. Oktyabrın 1-də isə sanki şəhid olacağını duyurmuş kimi ailəsində olan hər kəsə zəng edərək vidalaşdı. Anası Nüşabə xala ilə danışanda "ana, döyüş gedir, bilmək olmaz nə olacaq, əgər şəhid olsam, ağlama, bil ki, oğlun canından çox sevdiyi vətəni, bayrağı, milləti üçün canını fəda edib"- dedi. Elə həmin gün də 27 yaşlı Tural şəhadət kimi ali məqama qovuşdu və oktyabrın 3-ü Bakıda II Fəxri xiyabanda dəfn olundu. Müzəffər ordunun müzəffər Ali Baş Komandanı cənab Prezident İlham Əliyev tərəfindən baş leytenant Əsgərli Tural Ələmdar oğluna (ölümündən sonra) "Vətən uğrunda", "Kəlbəcərin azad olunmasına görə" medalları verildi.

Vətənə layiqli əsgər olan Tural Əsgərli, şəhid qardaşım, sən çox az insana nəsib ola biləcək şərəfli bir ömür yaşadın. Tapdalanan qürurumuzu bizə qaytararkən, sən ən böyük qürurumuz oldun. Bu gün məğrur-məğrur dalğalanan bayrağımızda sənin kimi oğulların duruşu, Qarabağdakı minarələrimizdə ucalan azan səsində isə nəfəsiniz duyulur. Siz vətənin əbədi oğlu oldunuz! Bu vətən sizə əbədiyyən oğul dedi!

**İlahə Allahverdiyeva**
***Jurnalistika ixtisası üzrə II kurs tələbəsi***

# XOCALI SOYQIRIMI ERMƏNİSTAN FAŞİZMİNİN TƏZAHÜRÜDÜR!

Erməni xislətlərini özündə açıq-aydın əks etdirən bir heykəl. Heykəl İrəvanda yerləşir. Soqomon Teyleryana aid olan bu heykəl erməni vəhşiliklərini və bu caniliklə necə fəxr etdiklərini göstərir. Heykəl Soqomonun Osmanlı imperiyasının sədrəzəmi olan Tələt paşanı öldürdüyü üçün ucaldılıb. Heykəldə Soqomon ayağını Tələt paşanın kəsilmiş başı üzərinə qoyub.

## FAŞİZMİN "BÖYÜK" HEYKƏLİ

Soqomon Teyleryan 2 aprel 1897-ci ildə Osmanlı imperiyasının Ərzincan şəhərində anadan olub. Birinci dünya müharibəsi başlayanda öz daşıdığı qanın xislətinə uyğun olaraq türklərə qarşı vuruşan erməni terorçularının tərəfinə keçib. "Nemezis" əməliyyatı çərçivəsində "Daşnaksütyun" partiyasının göstərişi ilə 1920-ci ildə Mkrtıç Arutunyanı öldürüb səbəbi isə guya "türk gizli polisinin siyasi şöbəsi" ilə əməkdaşlıq olub. Sonra Berlinə yollanıb,15 mart 1921- ci ildə Şarlottenburqda isə hamının gözü qarşısında keçmiş sədrəzəm Tələt paşanı öldürüb. Tələt paşanın adı terrorçuların qara siyahısında birinci yerdə gəlirdi. Alman polisi Soqomonu həbs edir, qısa sürən məhkəmə prosesi erməni millətçilərinin tamaşasına çevrilir. Ermənilər vaxt itirmədən Soqomon adına fond yaradır və tezliklə fonda böyük məbləğdə pul toplanır. Soqomon üçün Almanyanın ən bahalı 3 vəkilini tuturlar. Bunlardan biri də tanınmış hüquqşünas Köln Universitetinin hüquq professoru Kurt Nimayer də olub. Soqomonun əqli xəstə olması bəhanə olaraq göstərilib və 2 ay sonra azadlığa buraxılıb.

"Nemezis" əməliyyatı "Daşnaksütyun" Partiyasının təşkil etdiyi terror aksiyasıdır. Əməlliyatın keçirilməsi erməni ictimai-siyasi xadimi olan Şaan Natalinin təşəbbüsü ilə 1919-cu ilin oktyabrında İrəvanda keçirilən Daşnaksütyun partiyasının 9-cu qurultayında qərara alınmışdır. Aksiyanın məqsədi "erməni soyqırımı" və guya 1918-ci ildə Bakıda "öldürülən " ermənilərin qisasının alınması olub. Terror aktları nəticənində Osmanlı İmperiyasının və Azərbaycan Demokratik Respublikasının keçmiş rəhbərləri olub. Sözdə soyqırıma "aydiyyatı" olanların 650 nəfərlik siyahısı hazırlanır bunlardan 41 nəfər "əsas günahkarlar" elan olunur. Əməliyata rəhbərlik üçün xüsusi orqan yaradılır, bütün əməliyyat üçün o orqan məsuliyyət daşıyır. Orqanın rəhbəri Ermənistanın ABŞ-dakı elçisi Armen Qaro olur, eyni zaman da fond yaradılır və rəhbəri Şaan Satkaçklıyan seçilir. Operativ rəhbərlik və əməliyyatın maddi dəstəyi ilə Şaan Natali və Qriqor Merdjanov məşğul olurlar. İnformasiyanın yığılmasında özünü türk tələbə kimi qələmə verən Qraç Papazyan aktivlik göstərirdi. O, mühacirətdə olan "gənc türklərlə" yaxın əlaqələr qurmuşdu. Qətlin törədilməsi üçün 3-5 nəfərlik qruplar ayrılır, bu qrup qətlə yetirəcəkəri şəxsi izləməklə məşğul olur, sonra isə 1 nəfər cinayəti törədirdi. Əməliyyatın 2 əsas təşkili mərkəzi var idi. Bunlar "Çakatamart"(İstanbul) və "Droşak"(Boston) qəzetlərinin redaksiyaları idi.




Bu terror təşkilatı bir sıra böyük cinayətlər törətmişdir. Bunlardan biri, 19 iyun 1920-ci ildə Tiflisdə, Azərbaycan Demokratik Respublikasının keçmiş baş naziri Fətəli xan Xoyskinin qətlə yetirilməsidir. Bu zaman keçmiş ədliyyə naziri Xəlil bəy Xasməmmədov isə yaralanır. Qətli isə erməni terrorçu Aram Yerkaryanla birgə Mirak Kirakosyan törətmiş və Mirak isə aksiya nəticəsində yaralanmışdır. 19 iyun 1920-ci ildə isə Tiflisdə, Azərbaycan parlamentinin keçmiş sədr müavini Həsən bəy Ağayev qətlə yetirilir. Osmanlı imperiyasının keçmiş sədrəzəmi Səid Hilmi paşa, Trabzon valisi Camal Əzim, "Təşkili məxsusə" nin yaradıcısı Bahəddin Şakir, Azərbaycanın keçmiş daxili işlər naziri Behbud xan Cavanşir, Osmanlı imperiyasının hərbi dəniz naziri Camal paşa, Azərbaycan Demokratik Respublikasının baş naziri Nəsib bəy Yusifbəyli, "İttihad və tərəqqi" cəmiyyətinin keçmiş baş katibi doktor Nazimin də adı o siyahıda idi. Osmanlı İmperiyasının keçmiş hərbi naziri Ənvər paşanın adı siyahıda olsa da terrorçular onu öldürə bilmirlər. Lakin 1922-ci il avqust ayının 4-ü Ənvər paşa Qızıl ordunun erməni əsilli zabiti Hakob Melkumyan tərəfindən öldürülür.

**Yunis Allahverdiyev**
***Jurnalistika ixtisası üzrə IV kurs tələbəsi***

## SƏN YARADILIŞIN ƏN ALİSİSƏN

Ona görə özünü xoşbəxt hiss etməlisən ki, dünyanın sənə ehtiyacı var, dünyanı istiqamətləndirənlərdən biri sənsən. Düşün ki, sən istər müsbət olsun, istər mənfi olsun bütün əməllərinlə örnəksən və dünya səni örnək göstərmək üçün seçib. Sən dünyadan asılı deyilsən, dünya səndən asılıdır, çünki asılı olmasa səni yox qeyrisini seçərdi. Sən sonsuz azadlıqdasan alim olsan da, sərgərdan olsan da, zillətlə yaşayası olsan da, izzətlə yaşayası olsan da, dünya səndən asılıdır. Sən şahsan, dünya sənə itaətdədi.



Qır öz zəncirlərini, özünü idrak et! Gör sən hansı qüdrətdəsən, gör sənə nələr itaətdədi. Gəlmiş-keçmiş və gələcək bütün məxluqat sənə zəmin hazırlayıb, sənin gəlişini vəzifə edib. Sən var olmasaydın onların var olmasına ehtiyac qalmayacaqdı. Sən zəncirin halqasısan, qopduğun an bütün harmoniya qırılır, hər şey tari-mar olur. Tanrı səni yaratdığı üçün özünü tanıdıb sənə. Səni xəlq etməsə onun Tanrı olduğunu bilməyəcəkdin. Tanrı səni örnək seçməyə özünü məcbur hiss edib, amma sən heç nəyə məcbur edilməyibsən. Sən azadsan, sənin özünü tanıtmağa, örnək verməyə məcburiyyətin yoxdu. Sən yaradılışın, xilqətin ən ali və ələsisan.

Qır zəncirləri, yüksəl, əşiran eşqinə!

**Cəbrayıl Həsənzadə**
***Baş hüquqşünas, "Hüquq fənləri" kafedrasının müəllimi***

## QİSAS QİYAMƏTƏ QALMAYACAQDIR

Düşmənlər yağdırdı güllə yağışı...
Yurdumu viranə qoydu o gecə.
Günahsız xalqımın ahı naləsi,
Bağrımın başını oydu o gecə.
Körpə fidanların axdı göz yaşı,
Susuz çiçəyimin soldu camalı,
Fəryadlar, haraylar ucaldı göyə
Düşmən tapdağına döndü Xocalı.
Günahsız körpənin, qızın, gəlinin,
Gözünü süngüylə oydular o gün...
Qansızlar minlərlə günahsızların,
Ömrünü yarımçıq qoydular o gün.
Köksünə daş atdıq unutqanlığın,
O gün unudulan olmayacaqdır...
Eşitsin yer üzü, eşitsin Tanrı,
Qisas qiyamətə qalmayacaqdır!

**Sədaqət Nemət**
***Muzeyşünaslıq, arxiv işi və kitabxanaçılıq kafedrasının dosenti***



## XOCALI

Qış içində qış oldu
Bu qış başqa ağırdı.
Göydən qarla birlikdə
İsti mərmi yağırdı.

Yağırdı bir balanın
Gələcək həyatına,
Yağırdı bir cavanın
Qurulmuş xəyalına.

Yağırdı, dayanmırdı,
Mərhəmət qurumuşdu.
Burda bircə Xocalım
Varlığın qorumuşdu.

Sən, yaralı Xocalı,
Nələrə şahid oldun?
Görəsən o gecədə
Səndəmi şəhid oldun?

**Zibeydə Əlizadə**
***Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə II kurs tələbəsi***



## HANSI YARA SAĞALMAZ

Hansı yara sağalmaz ki, bədəndə,
Torpaq alsa qucağına vətəndə?!
Hansı yara sağalmaz ki, ürəkdə,
Dağda, düzdə çiçək açsa hər rəngdə?!
Hansı yara sağalmaz ki, yaddaşda,
Köhnə ocaq naxış salsa o daşda?!
Hansı yara sağalmaz ki, bu canda,
Ruh şəhadət səmasına uçanda?!
Öz qanıyla qüsul alan yuyulmaz,
Kəfənlərlə, sarğılarla sarılmaz,
Şəhadəti ovuc-ovuc içən var,
Hansı şəhid, hansı yara sağalmaz?!

**Fariz Əhmədov**
***Elmi kitabxanın direktoru***

## İMAMZADƏ OCAĞIM

Tanrı sığalın çəkib bu torpağa elə bil,
İlmə-ilmə işlənib yurduma abidələr,
Bir yanda Möminəsi, bir yanda Nuh türbəsi
Bir tərəfdə Əlincə mavi göyləri dələr.

Bir də müqəddəsi var bu müqəddəs məkanın,
O yer ki, üzərinə Seyid Əqil baş qoyub.
Tanrının baxışları Nehrəmdən keçən zaman,
İmamzadə piriylə hamını çaş-baş qoyub.

Duruşuyla bir xalqın ocaq yerinə dönüb,
Varlığıyla su səpdi alışan ürəklərə,
Vətənin inanc yeri, tarixi İmamzadə,
Yol oldu qəlblərdəki çarəsiz diləklərə.

Hər daşında bir naxış adama gəl-gəl deyir.
Bura dinlə tarixin qovuşduğu məkandı.
Memarlığın ən incə, ən zərif formasının,
Hər yerdən qaçıb gedib yovuşduğu məkandı.

Hələ söz axtarıram sözlərin içindən ki,
Yep yeni görünüşü vəsf etməyə dil tapım.
Hər daşına hopubdu müstəqilliyin ətri,
Ey mənim İmamzadəm,ey mənim ümid qapım.

Əzəmətli duruşla Qurucu Rəhbərimin,
Əməliylə dediyi ən möhtəşəm sözüsən.
Düşmənlərə göz dağı, İmamzadə ocağım,
Sən indi tərəqqinin adı deyil özüsən.

**Qızbəsti Sultan**
***Jurnalistika ixtisası üzrə III kurs tələbəsi***



## QƏM- HƏYAT YOLDAŞIM

Qalmayıb taqətim, gücüm, qüvvətim
Qayaya çırpılan bir daş kimiyəm.
Gözümdə axmağa qalmayıb yaşım,
Ölümə qaçan bir "ölü" kimiyəm.

Baxma, sən ayaq üstə durduğuma,
Qamətim əyilib, bükülüb çoxdan.
Səsimi eşidən zaman aldanma,
Titrək səslə yaşar bu insan çoxdan.

Gözlərim gülər, xoşbəxt sanarsan,
Halbuki güləndə yıxılıram mən.
O gözə baxıb da xoşbəxt sanarsan,
Halbuki içindən yıxılmışam mən.

Qəm həyat yoldaşım, buraxmaz məni,
Belə sevən yoldaş, tapmayıb məni,
Əlimi bir anda buraxmaz əli,
Belə candan yoldaş tapılarmı heç?!

**Jalə Hacızadə**
***Azərbaycan dili və ədəbiyyat müəllimliyi ixtisası üzrə II kurs tələbəsi***

## GÖRMƏDİNMİ

Ey təxti-Süleyman varisi – cahan mülkünün ulu qüdrəti,
Fani dünyada xaki - pay olan o vəfasız səltənəti görmədinmi?!

"Hökm mənəm, tanrı mənəm, məbud mənəm" deyən, nadan
Ümmanlar aşan, dənizlər yaran, Musai- xilaskari görmədinmi?!

Allah hökmdarlıq verdi deyə təkəbbürlənən, Nəmrud,
Atəş yandırmayan İbrahimi-Xəlilullahi görmədinmi ?!

Zalim xəlifəyə biyət edən, mizani - hikmətdən uzaq,
Zirvədə xeymələr quran aşiqi-binəvani görmədinmi ?!

**Cəbrayıl Həsənzadə**
***Baş hüquqşünas, "Hüquq fənləri" kafedrasının müəllimi***

Baş redaktor:
ŞƏHLA ŞİRƏLİYEVA
shshahla36@gmail.com

Ünvan: AZ 7012, Naxçıvan şəhəri, Universitet şəhərciyi
Telefonlar: 544-08-61 (13-60)
yenifikir.ndu@gmail.com

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİ NDU

Qeydiyyat №330
Sifariş №
Tiraj 500

Redaktor: Samir Tarverdiyev
"Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində ofset üsulu ilə çap olunmuşdur.